Demokratiya, güclü iqtisadiyyat - Dağlıq Qarabağın açarıdır!


DEMOKRATİK, MÜSTƏQİL QƏZET

# BAKI XƏBƏR

www.baki-xeber.com

30 İYUL 2019-cu il
№ 132 (4030)
Qiyməti 40 qəpik

Həftədə 5 dəfə çıxır
Qəzet 2003-cü ildən nəşr olunur


# ELMAN RÜSTƏMOV ÜÇÜN ÇOX ÇƏTİN MALİYYƏ DÖVRÜ BAŞLAYIR...

səh. 10

*Artan valyutanın manatı bahalaşdırmaq təhlükəsi gücləndikcə baş bankir daha mürəkkəb duruma düşür*



səh. 9

## Azərbaycanın Qarabağ diplomatiyasının yeni üstünlüyü - Ermənistan milli təhlükəsizlik strategiyasını dəyişir...

Azərbaycan "Yüksəliş"lə kadr ehtiyatları bankının yaradılması yollarında...
səh. 3

Yeni viza dövründə erməni əsilli Türkiyə vətəndaşlarının Azərbaycana gəliş məsələləri - təxribatçı Karo Paylan...
səh. 5

"Qarabağ klanı" revanşa başlayır
səh. 8

Ermənistanın demarşı - S-400-lərə görə ABŞ genosidi tanıya bilər(?)
səh. 6

Ermənistandan Qarabağa üçüncü şose yolu - ermənilər dincliklə həll istəmir
səh. 7

*8555 taksi xidmətinin müştərilərlə anlaşılmaz qiymət siyasəti - gündüzlər bir, gecələr fərqli qiymətlər...
səh. 14

"Kral"ın halal kolbasaları ilə bağlı nə baş verir?
səh. 12

Üzərində ingiliscə söyüş yazılan köynəklər Bakıya necə gətirilir...
səh. 14



ATƏT-in KİV nümayəndəsinin ABŞ Konqresində Azərbaycanla bağlı aşkar yanlış dəyərləndirməsi...
səh. 3

Ermənistanda parlament idarəçiliyinə Rusiyadan rəsmi neqativ qiymət...
səh. 7



Ermənistanın 3-cü şose yolu ilə Azərbaycan torpaqlarında möhkəmlənmək planı - ATƏT vasitəçiləri niyə susur...
səh. 6

səh. 5
Rusiya XİN-də gözlənilən kadr dəyişiklikləri - Karasin Qarabağın taleyini kimə verəcək?



səh. 4
"Novoe vremya" rusdillilər arasında Azərbaycan birincisi oldu



səh. 4
Xatirə Kitabının itkin şəhidlərimiz barədə daha bir kitabı çıxdı - "Gözlər yoldan yığılarmı..."



səh. 13
Milli Yaylaq Festivalı Azərbaycana nə verdi...



səh. 12
Spirtli içkilərlə heç əlaqəsi olmayan tarixi şəxsiyyətlərimizin şəkli butulkalarda...





# Prezident İlham Əliyev Fransanın İqtisadiyyat və maliyyə nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib

**Prezident İlham Əliyev iyulun 29-da Fransanın İqtisadiyyat və maliyyə naziri Brüno Lö Merin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.**

Fransaya ötənilki uğurlu səfərini məmnunluqla xatırlayan dövlət başçısı Fransa Prezidenti Emmanuel Makronla keçirilən səmərəli müzakirələri Azərbaycanla Fransa arasında tərəfdaşlıq əlaqələrinin inkişafına xidmət edən amil kimi dəyərləndirib. Prezident İlham Əliyev iqtisadi əməkdaşlığımızın uğurla inkişaf etdiyini bildirərək, bu baxımdan biznes əlaqələrinin və biznes nümayəndələrinin qarşılıqlı səfərlərinin önəmini qeyd edib, başçısı fransız şirkətlərinin Azərbaycandakı səmərəli fəaliyyətini qeyd edərək, onların sayının artmasından məmnunluğunu ifadə edib. İnvestisiya sahəsində də yaxşı əməkdaşlığın həyata keçirildiyini vurğulayan dövlət başçısı Fransanın İqtisadiyyat və maliyyə naziri Brüno Lö Merin ölkəmizə səfərinin əməkdaşlığımızın perspektivlərinin müzakirəsi üçün yaxşı imkan yaratdığını deyib və bu səfərin əlaqələrimizin daha da inkişaf etdirilməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirib.

Fransalı nazir, ilk növbədə, Fransa prezidenti Emmanuel Makronun salamlarını dövlət başçısına çatdırıb. Brüno Lö Mer Bakının abadlığının və inkişafının onlarda xoş təəssürat doğurduğunu vurğuladı. O, Fransa tərəfinin Azərbaycanla siyasi və iqtisadi sahələrdə əməkdaşlığı genişləndirməkdə maraqlı olduğunu deyib.

Söhbət zamanı Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı Azərbaycanın mövqeyi bir daha vurğulanıb, münaqişənin nizama salınması ilə əlaqədar fikir mübadiləsi aparılıb.

Görüşdə neft, qaz, nəqliyyat, infrastruktur, ekologiya və digər sahələrdə əməkdaşlıq və görüləcək işlər müzakirə edilib.

Dövlət başçısı Fransa prezidenti Emmanuel Makronun salamlarına görə minnətdarlığını bildirib, onun da salamlarını Fransa prezidentinə çatdırmağı xahiş edib.

## Fransa Prezidenti Novruz Məmmədovu mükafatlandırdı

**Azərbaycan Respublikasının Baş naziri Novruz Məmmədov Fransa Prezidentinin Fərmanı ilə "Şərəf Legionu" ordeninin zabit dərəcəsi ilə təltif edilib. "Trend"in məlumatına görə, Baş nazirə ordeni Fransa hökuməti adından Bakıda səfərdə olan Fransanın İqtisadiyyat və maliyyə naziri Brüno Lö Mer təqdim edib. Fransız dilinin, ədəbiyyatının peşəkar tədqiqatçısı Novruz Məmmədov bu ali mükafata Azərbaycan-Fransa əməkdaşlığına verdiyi töhfəyə görə layiq görülüb. Bu xoş xəbəri çatdırmaqdan məmnun olduğunu bildirən Fransanın İqtisadiyyat və maliyyə naziri Brüno Lö Mer ölkəsinin Baş nazir Novruz Məmmədova xüsusi hörmət və ehtiramı olduğunu vurğulayıb.**



Novruz Məmmədov isə öz növbəsində bu ali mükafata layiq görüldüyünə görə Fransa dövlətinə və fransız xalqına minnətdarlığını bildirib.

"Şərəf Legionu" ordeni 19 may 1802-ci ildə Napoleon Bonapart tərəfindən təsis edilib. Fransanın ən yüksək dövlət mükafatı olan "Şərəf Legionu" ordeninin 5 dərəcəsi var. Fransa Respublikası və onun xalqı qarşısında xüsusi xidmətləri olan şəxslərə verilən "Şərəf Legionu" ordeninin zabit dərəcəsinə indiyədək dünyanın bir çox görkəmli insanları layiq görülüb.

## Bakıda Novruz karnavalı planlaşdırılır

**Bakı Turizm İnformasiya Mərkəzi paytaxtda Novruz bayramının daha fərqli şəkildə qeyd edilməsi üçün yeni layihə üzərində iş aparır. Bunu "Trend"ə Bakı Turizm İnformasiya Mərkəzinin direktoru Rüfət Bağırov deyib.**




Onun sözlərinə görə, hazırda yeni layihələr üzərində iş aparılır:

"Layihələrin çoxu hələ təsdiqlənməyib. Amma düşünürəm ki, 2020-ci ilin sonunadək hər kəs yeni layihələrin şahidi olacaq.

Həmin layihələrdən biri Novruz karnavalının keçirilməsi ilə bağlıdır.

Planlaşdırılır ki, karnavalda Bakının mərkəzi küçələrində milli personajlarımız iştirak etsinlər. Bizim düşündüyümüz layihə çox qeyri-adidir.

**Biz elə etmək istəyirik ki, həmin karnavalda iştirak edən turistlər yenidən Bakıya qayıtmaq barədə fikirləşsin".**

# Birinci vitse-prezident Mehriban Əliyeva Fransanın İqtisadiyyat və maliyyə naziri ilə görüşüb

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva iyulun 29-da Fransa Respublikasının İqtisadiyyat və maliyyə naziri Brüno Lö Merlə görüşüb.**



Birinci vitse-prezident bu ilin martında Parisə səfəri zamanı Fransanın İqtisadiyyat və maliyyə naziri Brüno Lö Merlə görüşü və aparılan müzakirələri xatırlayıb, qonağın Azərbaycana səfərinin uğurla keçəcəyinə əminliyini ifadə edib. Mehriban Əliyeva Azərbaycanla Fransa arasında münasibətlərin dostluq və qarşılıqlı maraqlara əsaslandığını qeyd edib, siyasi əlaqələrin yüksək səviyyədə olduğunu bildirib. İqtisadi əlaqələrin münasibətlərimizin inkişafında xüsusi yer tutduğunu vurğulayan Birinci vitse-prezident son zamanlar bu sahədə müşahidə edilən müsbət dinamikanın ölkələrimiz arasındakı əlaqələrin daha da genişlənməsinə töhfə olacağını deyib, mövcud potensialdan tam istifadə etməyin vacibliyini diqqətə çatdırıb.

Mehriban Əliyeva Azərbaycanda son illərdə iqtisadi sahədə böyük islahatların aparıldığını qeyd edərək, əsas məqsədin iqtisadiyyatın şaxələndirilməsi olduğunu bildirib, özəl sektorun rolunun artırılmasının zərurliyinə toxunub, bu sahədə Fransanın təcrübəsinin maraq doğurduğunu deyib.

Azərbaycana ilk dəfə səfər etdiyini bildirən Fransanın İqtisadiyyat və maliyyə naziri ölkəmizin regionda xüsusi mövqeyə malik olduğunu vurğulayıb, ölkələrimizin iqtisadi əməkdaşlığının böyük potensialını qeyd edib, Azərbaycan və Fransa şirkətləri arasında əlaqələrin daha da genişləndirilməsinin və inkişaf etdirilməsinin əhəmiyyətini vurğulayıb.

Görüşdə ölkələrimiz arasında qeyri-neft sektorunda həyata keçirilən layihələr, Fransa şirkətlərinin Azərbaycanın özəl qurumları ilə işgüzar əlaqələri və digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

# Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişin daşınmasına nə vaxt başlanacaq?

**"Azərbaycan Dəmir Yolları" QSC-nin sədri Cavid Qurbanov Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişin daşınmasının başlanması məsələsinə münasibət bildirib.**

"Trend"in məlumatına görə, C.Qurbanov qeyd edib ki, sərnişindaşınmaya başlanması təkcə Azərbaycandan asılı deyil. Amma Azərbaycanın Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişin daşınmasına başlamağa hazır olduğunu da vurğulayıb.



C.Qurbanovun sözlərinə görə, Bakı-Tiflis-Qars dəmir yolu ilə sərnişindaşımaya başlanılmaması digər ölkələrlə əlaqədardır. O qeyd edib ki, Gürcüstan və Türkiyə tərəfləri bu xətlə sərnişin qatarının işə düşməsinə hazır olduqdan sonra sərnişin daşımalarına başlanacaq.

**Məlum olduğu kimi, Prezident İlham Əliyev "Yüksəliş" müsabiqəsinin təsis edilməsi haqqında sərəncam imzalayıb. Sərəncama əsasən, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsi təsis edilir.**

# Azərbaycan "Yüksəliş"lə kadr ehtiyatları bankının yaradılması yollarında...

*"Mən Prezidentin "Yüksəliş" müsabiqəsinin elan edilməsilə bağlı imzaladığı sərəncamı təqdir edirəm"*



Qeyd edək ki, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Humanitar siyasət məsələləri şöbəsinin müdiri Fərəh Əliyevanın sədrliyi ilə Təşkilat Komitəsi yaradılır. Təşkilat komitəsinin üzvlüyündə vergilər naziri Mikayıl Cabbarov, gənclər və idman naziri Azad Rəhimov, təhsil naziri Ceyhun Bayramov, əmək və əhalinin sosial müdafiəsi naziriSahil Babayev, Azərbaycan Respublikasının Birinci vitse-prezidentinin köməkçisi Anar Ələkbərov, Milli Məclisin deputatı Ülvi Quliyev, Dövlət İmtahan Mərkəzinin Direktorlar Şurasının sədriMəleykə Abbaszadə, İctimai Televiziya və Radio Yayımları Şirkətinin baş direktoru Balakişi Qasımov təmsil olunacaq.

Təşkilat Komitəsi müsabiqənin keçirilməsinə ümumi rəhbərliyi və nəzarəti həyata keçirməli, müsabiqə üzrə əlaqələndirmə işlərinin həyata keçirilməsi ilə əlaqədar işçi qrup yaratmalı və Azərbaycan Respublikası gənclər və idman nazirinin müavinini işçi qrupun rəhbəri təyin etməli, müsabiqənin keçirilməsi qaydalarını təsdiq etməli, işçi qrup Müsabiqənin keçirilməsini təmin edəcək qurumu müəyyən etməlidir.

Müsabiqə üzrə cari işlərin həyata keçirilməsi üçün səlahiyyətli orqan qismində Azərbaycan Respublikasının Gənclər və İdman Nazirliyi müəyyən edilib.

Millət vəkili Fərəc Quliyev baki-xeber.com-a bildirdi ki, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsini, dəstəklənməsini və ölkədə kadr ehtiyatı bankının yaradılmasını təmin etmək məqsədilə "Yüksəliş" müsabiqəsinin ?lan edilməsi çox müsbət haldır. F.Quliyevin sözlərinə görə, respublikada kadr ehtiyatları bankının yaradılması uzun illərdir aktualdır. "Mən Prezidentin "Yüksəliş" müsabiqəsinin ?lan edilməsi ilə bağlı imzaladığı sərəncamı təqdir edirəm. Hesab edirəm ki, bu olduqca vacib bir məsələdir. Mən özüm iki dəfə prezident seçkilərində iştirak etmişəm və həmin dövrlərdə də əsas məsələ kimi ölkəmizdə kadr ehtiyatları bankının yaradılması diqqətimdə olub. Ümumiyyətlə, intellektual səviyyəsi və idarəçilik keyfiyyətləri yüksək olan perspektiv rəhbər şəxslərin müəyyən edilməsi, dəstəklənməsi və ölkədə kadr ehtiyatı bankının yaradılması dövlətin idarəolunması üçün çox mühümdür. İdarəçilik məsələsində kadr bankı yaradılarkən yalnız Şimali Azərbaycanda deyil, dünyanın hər yerində yaşayan və çalışan, fərqlənən soydaşlarımızı da bu kadrlar sırasına daxil etməliyik. Azərbaycanda həyata keçirilən kadr islahatları, xüsusən də son dövrlər bir sıra nazirliklərə və qurumlara yeni nazirlərin, rəhbərlərin gətirilməsi göstərir ki, artıq Azərbaycanda bu işə başlanılıb. Düşünürəm ki, kənd təsərrüfatı naziri İnam Kərimov, əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev, Gömrük Komitəsinin sədri Səfər Mehdiyev, Diaspor Komitəsinin sədri Fuad Muradov, Qaçqınlarla İş üzrə Komitənin sədri Rövşən Rzayev, eləcə də baş nazir Novruz Məmmədov olduqca uğurlu seçimdir".

***Fərəc Quliyev:** "Ümumiyyətlə, ölkədə kadr ehtiyatı bankının yaradılması dövlətin idarə olunması üçün çox mühümdür"*

F.Qulieyev onu da qeyd etdi ki, "Yüksəliş" müsabiqəsi həyata keçirildikdən sonra biz daha bacarıqlı, intellektli, haqqı olan və güclü kadrların dövlətin idarə edilməsində iştirakının şahidi olacağıq.

***İradə SARIYEVA***

**Ötən həftə ATƏT-in KİV azadlığı üzrə nümayəndəsi Arlem Dezir təşkilatın üzvü olan Azərbaycan kimi bəzi dövlətləri müstəqil KİV-in səsini boğmağa son qoymağa çağırıb, bunun yolverilməz olduğunu qeyd edib. Onun sözlərinə görə, liderlər jurnalistlərin kritik əhəmiyyət kəsb edən roluna hörmət etməli və onları qorumalıdırlar.**

# ATƏT-in KİV nümayəndəsinin ABŞ Konqresində Azərbaycanla bağlı aşkar yanlış dəyərləndirməsi...

***Azər Həsrət:** "Bu adamlar, birmənalı şəkildə, Azərbaycanda yaxşı heç nəyin olmadığını iddia etməyə qərarlıdırlar"*




"Azərbaycandakı vəziyyət bizdə dərin narahatlıq hissi yaradır", - deyə Dezir Vaşinqtonda Konqres qarşısında çıxışında bildirib. O bununla bağlı Azərbaycana yönəlik bir sıra qərəzli xarakterli tənqidi fikirlər səsləndirib: "Biz həqiqətən Azərbaycanın ATƏT qarşısında müstəqil kütləvi informasiya vasitələri və müxtəlif səslər - ölkədəki vəziyyətlə bağlı öz mövqeyini bildirmək imkanına malik olanlarla bağlı öhdəliklərinə riayət etməsini istəyirik".

Dezir bildirib ki, guya ölkədə çox az sayda müstəqil KİV qalıb və müstəqil KİV-in əksəriyyəti isə xaricdən işləyir.

ATƏT nümayəndəsi, həmçinin, Azərbaycana səfər etmək planından bəhs edib. Onun sözlərinə görə, bu məsələ Azərbaycan XİN-lə müzakirə olunub: "Biz bu məsələni müzakirə etmişik, amma hələ də bu səfərlə bağlı konkret qərar gözləyirik".

O da məlum olub ki, ATƏT-in hesabatlarına əsasən, 2019-cu ilin ilk 6 ayı ərzində iki jurnalist öldürülüb, 92 jurnalist isə hücum və təhdidlərə məruz qalıb.

Göründüyü kimi, ATƏT nümayəndəsi, açıq-aşkar, Azərbaycana qarşı qərəzli mövqe sergiləyir. Azərbaycanda son illər istər internet, istərsə də çap medianın inkişafında ciddi irəliləyiş müşahidə edilir. Hər kəs öz fikirlərini sərbəst şəkildə ifadə edir. Belə olan halda, ATƏT təmsilçisinin Azərbaycan mediası barədə səsləndirdiyi həqiqətə uyğun olmayan fikirlərə ekspertlər necə yanaşırlar?

Məsələyə münasibət bildirən media eksperti Azər Həsrətin sözlərinə görə, birinci dəfə deyil ATƏT təmsilçisi Azərbaycanla bağlı belə qərəzli mövqe sərgiləyir: "Mən özüm də bir sıra beynəlxalq tədbirlərdə onların yalan-yanlış fikirlərini ifşa etmişəm. Təbii ki, bu adamlar meydanı boş görəndə sağdan-soldan topladıqları əsassız və qərəzli informasiyaları ciddi informasiya kimi təqdim etməyə çalışırlar. Bu minvalla, Azərbaycanın üzərinə gəlirlər. Bu günlərdə "Human Rights Watch" təşkilatının təmsilçisinin yazısını oxudum. Yazıda İkram Rəhimov kimi bəlli səbəblərdən həbs olunan "jurnalistin" həbsini Azərbaycanda mətbuat azadlığına basqı kimi qeyd edirlər. Yəni bu cür əsassız informasiyalardan istifadə edirlər. Bu məsələdə, birincisi, məlumatı uyduran tərəflərlə əməkdaşlıq edirlər, ikincisi, bu məlumatların yalan olduğunu bilə-bilə Azərbaycanın üzərinə gəlirlər. Yəni bu adamlar, birmənalı şəkildə, Azərbaycanda yaxşı heç nəyin olmadığını iddia etməyə qərarlıdırlar. Arlem Dezirin səsləndirdiyi qərəzli fikirlər də bu qəbildəndir. Onlara görə, guya Azərbaycanda mətbuat azadlığı yoxdur. Varsa belə, bunu təkzib etməlidirlər. Bunların qərəzli yanaşması belədir. Ancaq Azərbaycan, başda Prezident İlham Əliyev olmaqla, mətbuatın inkişafı üçün əlindən gələni edir. Azərbaycan dövləti, ümumiyyətlə, normal, azad və məsuliyyətli medianın inkişafında maraqlıdır. Ona görə də səslənən fikirlərin heç bir əsası yoxdur".

*"Arlem Dezirin səsləndirdiyi qərəzli fikirlər də bu qəbildəndir"*

***Vidadi ORDAHALLI***

# Xatirə Kitabının itkin şəhidlərimiz barədə daha bir kitabı çıxdı - "Gözlər yoldan yığılarmı..."

**Jurnalist-publisist Nəzirməmməd Zöhrablının "Gözlər yoldan yığılarmı..." adlı növbəti kitabı işıq üzü görüb. Kitab Qarabağ döyüşlərində itkin düşmüş soydaşımız Xəqani Eyvaz oğlu Əkbərovun həyat və döyüş yolu əsasında qələmə alınmış sənədli povestdir.**




*"Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən yazılan kitab itkin-şəhid Xəqani Əkbərovun taleyindən bəhs edir*

"Azəri" Poliqrafiya nəşriyyatında nəfis tərtibatla çap olunmuş "Gözlər yoldan yığılarmı..." kitabı Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin Xatirə Kitabı redaksiyası ilə "Bakı-xəbər" qəzetinin "Şəhidlər ölməz, Vətən bölünməz" silsiləsindən müştərək layihəsi əsasında ərsəyə gətirilib. Layihənin rəhbəri Xatirə Kitabı redaksiyasının baş redaktoru, tanınmış şairə Nəzakət xanım Məmmədova, redaktoru və ön sözün müəllifi şair-publisist Zülfüqar Şahsevənli, rəyçisi "Bakı-xəbər" qəzetinin baş redaktoru Aydın Quliyev, texniki redaktoru Dilarə Hüseynova, korrektoru Kamilə Dilbazi, dizayneri Cəfər Kərimovdur.

Layihə rəhbərinin təqdimatı, redaktorun "Bir yetim haray var, gəzir dünyanı!" başlıqlı yazısı ilə açılan "Gözlər yoldan yığılarmı..." kitabında müəllif İsmayıllı rayonunun Gəraybəyli kəndində doğulmuş, o vaxtkı Azərbaycan Dövlət Neft-Kimya İnstitutunun III kursunda təhsilini yarımçıq qoyub könüllü olaraq Qarabağa - qanlı döyüş meydanına yollanmış, indi itkin-şəhid statuslu Xəqani Əkbərovun döyüş yolu, axtarışları, doğmalarının, tanışlarının onun haqqında xatirə və diləklərini qələmə almışdır. Kitab "Axtarışlar" və "Xatirələr, diləklər" adlı iki bölümdən ibarətdir. N.Zöhrablının Xəqaninin itkin düşməsindən 25 il sonra çox çətinliklə tapdığı döyüş yoldaşları ilə söhbətləri bu igid həmyerlimizin döyüşə, Vətənə münasibəti, itkin düşmə şəraiti barədə zəngin məlumatları ortaya çıxarmışdır. Yenicə nişanlanmış Xəqaninin bütün təkidlərə rəğmən döyüş yolunu seçməsi, məzuniyyətin sonunu belə gözləmədən Ağdamın döyüş nöqtələrinə çevrilmiş kəndlərinə qayıtması vətənpərvərliyin təbliğində əvəzsiz nümunələrdən biridir. Kitabdakı yazıları Xəqani ilə ilgili, eləcə də onun axtarışları, müsahibələr zamanı lentə alınmış, hər biri mahiyyətində böyük anlamları daşıyan rəngli şəkillər bloku müşayiət edir. İnanırıq ki, nəşr soydaşlarımızın, özəlliklə gəncliyin, sabahın azərbaycanlılarının stolüstü kitabına çevriləcək və vətənpərvərliyin son dərəcə əhəmiyyətli bir nümunəsi kimi yaddaşlarda özünə yer edəcək.

Xatirə Kitabı redaksiyasının kollektivi "Gözlər yoldan yığılarmı..." kitabının geniş ictimaiyyətə təqdim edilməsinə itkin-şəhidin doğulduğu İsmayıllı rayonundan başlamağı planlaşdırır. Sentyabr-oktyabr aylarında isə Bakıda təqdimat mərasiminin keçirilməsi nəzərdə tutulur.

# "Novoe vremya" rusdillilər arasında Azərbaycan birincisi oldu

**Azərbaycanda anadilli mətbuat orqanları ilə yanaşı, qeyri dillərdə də kütləvi informasiya vasitələrinin inkişafına dövlət səviyyəsində böyük diqqət yetirilir. Bu gün ölkəmizdə nəşr edilən rusdilli qəzet və jurnalların özünün sabit oxucu auditoriyası formalaşıb. Rusdilli qəzetlər sırasında özünün xüsusi yeri olan 20 yaşlı "Novoe vremya" qəzeti "İlin rusdilli nəşri" seçilib.**


Наш сайт: WWW.NOVOYE-VREMYA.COM
НЕЗАВИСИМАЯ ОБЩЕСТВЕННО-ПОЛИТИЧЕСКАЯ ГАЗЕТА
НОВОЕ Время
№ 175 (3749) 30 сентября 02 октября 2017 Цена 50 гяпик
Американские штаты решили поддержать карабахских сепаратистов
Если необходимость восстановления территориальной целостности Украины, Грузии и Молдовы не вызывает никаких сомнений у политиков Европы и США с

*"Bu sorğunun nəticəsi, eyni zamanda, son vaxtlar "çap mediası az oxunur, tənəzzülə uğrayıb" deyənlərin fikirlərini də təkzib edir"*

***Şakir Habiloğlu:** "Azərbaycan Slavyan Gənclər Assosiasiyası və İcmal.az Analitik Təhlil Mərkəzi 1000-dən çox oxucu arasında sorğu keçirib və sorğunun nəticəsindən asılı olaraq "Novoe vremya" ilin ən çox oxunan rusdilli qəzeti seçilib"*

"Novoe vremya" qəzetinin baş redaktoru Şakir Habiloğlu (Ağayev) bu uğurlarını oxucu diqqətilə əlaqələndirir. O hesab edir ki, istənilən KİV-in uğur qazanmasında əsas meyar oxucu tələbatı və diqqətidir. "Azərbaycan Slavyan Gənclər Assosiasiyası və İcmal.az Analitik Təhlil Mərkəzi müxtəlif istiqamətdə sorğular keçirir. Bu qurumlar keçən mətbuat günü ilə bu mətbuat günü arasında oxucular arasında sorğu keçiriblər, sorğunun nəticələri mənim üçün tamaimlə gözlənilməz oldu. Ümumiyyətlə, o təşkilatların belə bir sorğu keçirməsindən xəbərim olmayıb. Azərbaycan Slavyan Gənclər Assosiasiyası və İcmal.az Analitik Təhlil Mərkəzi 1000-dən çox oxucu arasında sorğu keçirib və sorğunun nəticəsindən asılı olaraq "Novoe vremya" ilin ən çox oxunan rusdilli qəzeti olub. Milli Mətbuat Günü ərəfəsində bu barədə mənə məlumat verdilər və sözün düzü, çox sevindim ki, gündəlik nəşr edilən qəzetimizə oxucular tərəfindən belə yüksək bir qiymət verilib. Bilirsiz ki, qəzet üçün ən böyük qiymət oxucunun verdiyi qiymətdir. İstənilən jurnalist üçün oxucu münasibəti əsasdır. Fərqi yoxdur, istər müsbət, istərsə də mənfi olsun. Əsas odur ki, yazdığın hədəfə dəyib və insanları maraqlandırıb. Həsən bəy Zərdabinin xatirələrini oxuyarkən bu dahi şəxsiyyətin oxucu məktublarına verdiyi dəyərlə tanış oldum. O, "Əkinçi"ni buraxarkən ona çoxlu oxucu məktubları gəlirdi. O, evdə həmin məktubları oxuyarkən gülüb-sevinirmiş, yoldaşı soruşub ki, o məktublarda nə yazıblar, "məni söyürlər" deyə cavab verib. Deyib səni söyürlərsə ona niyə sevinirsən? Cavab verib ki, mənim yazdıqlarıma reaksiya var və yazdıqlarım hədəfə dəyib. Təbii ki, bu təşkilatların bizdən xəbərsiz belə bir sorğu keçirməsi, oxucuların qəzetimizə müsbət rəy verməsi bizim üçün sevindirici haldır. Bu bizə əlavə bir güc, bir enerji, stimul verir ki, daha böyük əzmlə işləyək. Bu sorğunun nəticəsi, eyni zamanda, son vaxtlar "çap mediası az oxunur, tənəzzülə uğrayıb" deyənlərin fikirlərini də təkzib edir. Fakt budur ki, çap mediasını oxuyanlar var və ona tələbat azalmayıb. Bu sorğu da bunu bir daha sübut etdi".

Ş.Habiloğlu sorğu keçirən qurumlara və oxuculara təşəkkürünü bildirməklə yanaşı qeyd etdi ki, oxucunun ona ünvanlanan qəzetləri qiymətləndirməsi müsbət haldır. Artıq mükafatın redaksiyaya təqdim edildiyini qeyd edən Ş.Habiloğlunun sözlərinə görə, bu hadisəni qəzetin kollektivi də böyük sevinclə qarşılayıb. "Bu o deməkdir ki, bizim il ərzində buraxdığımız qəzetə tələbat var. Bu qəzet Azərbaycanın milli dövlətçilik maraqlarından çıxış edərək, ölkəmizdə həyata keçirilən işlərin obyektiv qiymətləndirilməsi oxucuların diqqətinə səbəb olur. Bilirsiz ki, bu gün çap mediasını daha çox rusdilli ictimaiyyət oxuyur. Bizim qəzetdə ən çox Qarabağ məsələsi, Azərbaycanın haqlı mövqeyi, dövlətimizin beynəlxalq siyasəti, sosial-iqtisadi, mədəni və və sair məsələlər işıqlandırılır. Biz bunu rusdilli ictimaiyyətə çatdıra biliriksə və çatdırdığımız informasiyalar ortalıqda qalmayıb oxunursa, bu ən böyük mükafatımızdır. Rus dili dünyanın böyük ölkələrində qəbul edilən və oxunan bir dildir. Biz dünyada gedən proseslərlə bağlı məlumatları da əsasən rus dili vasitəsilə alırıq və dünyaya öz problemlərimizi rus dilində daha geniş səviyyədə çatdıra bilirik.

Dünyanın 180 milyon əhalisi rus dilində danışır, bu dili anlayır və bu dildə oxumağı bacarır. Məhz rusdilli qəzetə oxucuların belə müsbət münasibət bəsləməsi, onlar tərəfindən qəbul edilməsi istər qəzet, istərsə də Azərbaycan üçün əhəmiyyətli məsələdir. Azərbaycanın haqlı mövqeyi rusdilli ictimaiyyətə çatdırılırsa və bu məsələ rus dili vasitəilə oxunursa, bu təbii ki, hamımızdan ötrü müsbət haldır və bizə verilən böyük qiymətdir".

**Ş.Habiloğlu bildirdi ki, "Novoe vremya" qəzeti 1999-cu ilin 9 oktyabr tarixində işıq üzü görüb və bu il qəzetin 20 yaşı tamam olur. 20 ildir ki, Azərbaycanın rusdilli ictimaiyyətinə Azərbaycanla bağlı həqiqətləri çatdıran qəzetin bu yaşa çatmasının böyük hadisə olduğunu deyən Ş.Ağayevin sözlərinə görə, bu illər ərzində qəzetin stabil oxucu auditoriyası formalaşdırılıb.**

*İradə SARIYEVA*

**Məlum olduğu kimi, Azərbaycan Xarici İşlər Nazirliyi (XİN) Türkiyə vətəndaşları üçün viza rejiminin ləğv edilməsi ilə bağlı açıqlama yayıb. Qeyd olunub ki, hərtərəfli inkişaf edən Azərbaycan-Türkiyə strateji tərəfdaşlığı ölkələrimiz arasında viza sahəsində əməkdaşlığın dəyərləndirilməsini və xalqlarımızın sərbəst gediş-gəlişinin təmin edilməsi zərurətini şərtləndirir:**

# Yeni viza dövründə erməni əsilli Türkiyə vətəndaşlarının Azərbaycana gəliş məsələləri - təxribatçı Karo Paylan...



"Bu baxımdan, Azərbaycana 30 günədək müddətə səfər etmək istəyən Türkiyənin ümumvətəndaş pasportuna malik vətəndaşları üçün 1 sentyabr 2019-u il tarixindən etibarən viza tələbi ləğv edilir".

Azərbaycan XİN tərəfindən Türkiyə Xarici İşlər Nazirliyinə viza tələbinin ləğvi ilə bağlı nota da ünvanlanıb: "Azərbaycan ərazisində 30 gündən artıq qalmaq istəyən Türkiyə vətəndaşlarının statusu Azərbaycan Respublikasının müvafiq qanunları ilə tənzimlənir.

Türkiyə hökumətinin qərarına əsasən, bu ölkəyə 30 günədək səfər edən Azərbaycan vətəndaşları viza tələbindən azad edilmişdi. Viza tələbinin ləğvi qərarı Azərbaycan və Türkiyə arasında qardaşlıq və dostluq münasibətlərinin yüksələn xətlə inkişafına növbəti əsaslı töhfə olacaq".

Qeyd edək ki, iki ölkə arasında viza rejiminin aradan götürülməsi hər iki dövlətdə böyük sevinclə qarşılanıb. Reaksiyalarda bildirilir ki, bu amil ölkələrimiz arasında dostluğu, qardaşlığı daha da möhkəmlədəcək.

Ancaq burada maraq doğuracaq və gələcəkdə bizim rastlaşa biləcəyimiz bəzi detallara da fikir verməyimiz, qabaqlayıcı tədbirlər görməyimiz lazımdır. Bəllidir ki, vizasız gediş-gəlişin tətbiqi bir sıra amillər nəzərə alınaraq həyata keçirilir. Xüsusilə də təhlükəsizliklə bağlı məsələlərdə problemlərin yarana biləcəyi ilə bağlı risqlər tam nəzərə alınır. Bir sözlə, bu, yalnız bir-birilə yaxın olan, münasibətləri strateji tərəfdaşlıq həddinə yüksələn ölkələr arasında yaradıla bilir. Ancaq praktikadan bəllidir ki, belə rejimdən sui-istifadə etməyə cəhd edənlər də az olmur. Xüsusilə də bədnam qonşularımız bu istiqamətdə fəallıq göstərirlər. Bir müddət əvvəl Azərbaycan Rusiya pasportu ilə ölkəmizə səfər etmək istəyən erməni əsilli vətəndaşları sərhəddən buraxmadı. Bundan ermənilər böyük şou düzəltmək istədilər. Hətta Rusiyanın rəsmi qurumları da narahatlıq ifadə etdilər ki, niyə onların vətəndaşları Azərbaycana səfər edərkən belə ciddi yoxlamaya məruz qalırlar? Ancaq Azərbaycanın rəsmi qurumları bunu ölkəmizin müharibə şəraitində yaşaması və məhz həmin vətəndaşların təhlükəsizliyinə zəmanət üçün belə addımların atıldığını izah etdilər. İstisna olunmur ki, Türkiyədə yaşayan çoxlu sayda erməni də bu amildən istifadə etməyə can atacaq. Onların arasında ələləri var ki, Türkiyə vətəndaşlığının arxasında gizlənərək sırf təxribatla məşğul olur. Bəllidir ki, son seçkilərdə 3 erməni əsilli şəxs Türkiyə parlamentinə seçilib. Onlardan biri də Karo Paylandır. HDP adlı partiyanı təmsil edən həmin deputat Türkiyə vətəndaşı olsa da, ən qatı separatçı ermənidən seçilmir. Onun atdığı addımlardan bunu aydın sezmək mümkündür. Həmin adam Türkiyənin və Azərbaycanın icazəsini almadan bir neçə dəfə işğal altında olan Dağlıq Qarabağa səfər edib.

Belə çıxır ki, Türkiyə millət vəkili Paylan Türkiyə XİN- i aldadaraq, Qarabağa qanunsuz səfər edib. Ya da Karo Paylan Türkiyə hökumətinin mövqeyini ciddiyə almır. Mətbuatdan məlum olur ki, türkiyəli millət vəkili İrəvanda Ermənistanın sabiq prezidenti Sarkisyanla da görüşüb və Türkiyə ilə Ermənistan arasında dialoqun bərpa edilməsi, bu iki ölkə arasında sərhədlərin qeyd-şərtsiz açılması istqamətində fəaliyyət göstərməyin zəruriliyi haqqında müzakirələr aparıb. Göründüyü kimi, bəzi erməni əsilli türk vətəndaşları Türkiyə dövlətinin imkanları ilə terrorçu Sarkisyanla belə əməkdaşlıq edir və hətta iki ölkə arasında "qarşılıqlı-faydalı" əməkdaşlığın sxemlərini hazırlamağa cəhdlər edirlər. İstisna deyil ki, Azərbaycana qarşı bu cür qanunsuz fəaliyyətdə olan Karo Paylan və onun kimi başqa Türkiyə vətəndaşları da vizasız rejim qaydalarının yaratdığı sərbəstlikdən istifadə edib Azərbaycana səfər etmək istəyəcəklər. Təbii ki, Azərbaycan dövləti belə halların qarşısını alacaq. Zatən, Paylan və onun xislətində olanların istəyi də bundan ibarətdir ki, belə hallardan şou düzətsinlər. Bütün dünyaya car çəksinlər ki, Türkiyə vətəndaşları Azərbaycana buraxılmırlar. Buna görə də biz qardaş ölkə ilə bağlı yaratdığımız sərbəstlikdən təxribat məqsədləri ilə yararlanmaq istəyənlərin ola biləcəyini də istisna etməliyik. Çünki biz müharibə şəraitində yaşayan ölkəyik. Ən kiçik detalları belə nəzərə almağımız gərəkdir.

***Məhəmmədəli QƏRİBLİ***

**Rusiya Xarici İşlər Nazirliyində Dağlıq Qarabağ münaqişəsi və keçmiş sovet respublikalarındakı digər münaqişələrlə məşğul olan diplomat dəyişir. Bu vəzifəyə Rusiyanın Ermənistandakı keçmiş səfirinin təyin olunacağı gözlənir.**

# Rusiya XİN-də gözlənilən kadr dəyişikliyi - Karasin Qarabağın taleyini kimə verəcək?

## *Nəzakət Məmmədova: "Rusiyanın Azərbaycana, Qarabağ münaqişəsinə münasibətinin dəyişməsi üçün onun ümumi strategiyası dəyişməlidir"*




Rusiya mətbuatı yazır ki, indiyədək bu münaqişələrlə məşğul olan xarici işlər nazirinin müavini Qriqori Karasin Federasiya Şurasının üzvlüyünə namizəd göstərilib. Onun yerini kimin tutacağı isə faktiki olaraq müəyyənləşib. Belə ki, XİN-də yüksək posta hazırda üç nəfərin namizədliyi nəzərdən keçirilir. Onların içərisində əsas namizəd XİN-in konsulluq departamentinin rəhbəri İvan Volınkindir. 60 yaşlı Volınkin Moskva Dövlət Beynəlxalq Münasibətlər İnstitutunun məzunudur, SSRİ-nin və sonradan Rusiyanın ABŞ, Yuqoslaviya, Gürcüstan, Serbiya və Monteneqro, Makedoniyadakı səfirliklərində işləyib.

2009-2013-cü illərdə xarici işlər naziri Sergey Lavrovun köməkçisi, nazirliyin baş katibliyinin direktor müavini olub. 2013-2018-ci illərdə isə Rusiyanın Ermənistandakı fövqəladə və səlahiyyətli səfiri işləyib.

Təcrübəli diplomat Qriqori Karasinin Federasiya Şurası üzvlüyünə namizədliyini Saxalin vilayətinin qubernatoru irəli sürüb. Avqust ayında onun 70 yaşı tamam olur. Karasinin uzun illərdir Dağlıq Qarabağ münaqişəsi ilə bağlı danışıqları, o cümlədən, Dnestryanı münaqişəni,

Belarusla müntəzəm olaraq baş qaldıran ticarət müharibəsini kurasiya edib. Rusiya XİN-də bu istiqamətdə işin spesifikası ondan ibarətdir ki, həmin ölkələrlə bağlı qərarlar əsasən nazirlikdə deyil, Kremldə qəbul edilir.

Rusiya XIN-də Dağlıq Qarabağ problemi ilə məşğul olan məsul bir vəzifənin uzun müddət Ermənistanda səfir işləmiş şəxsə həvalə olunması nəyi dəyişə bilər və bizim üçün bunun xeyirli-ziyanlı tərəfləri nədən ibarət olar?

Politoloq Nəzakət Məmmədova "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, belə kiçik yerdəyişmələr Rusiyanın ümumi siyasi kursuna təsir etmək gücündə deyil: "Həmin vəzifədə kimin olmasından asılı olmayaraq, bu şəxs Rusiya dövlətinin ümumi strateji siyasətinin icraçısı funksiyasını həyata keçirəcək. Rusiyanın Cənubi Qafqaza, Ermənistana yönəlik siyasəti nədirsə, yeni təyin olunan şəxs də onu davam etdirəcək. Üstəlik, nəzərə alsaq ki, həmin şəxsin naziri erməni mənşəli Lavrovdur, hansı namizədin olmasının xüsusi bir əhəmiyyəti yoxdur. Həmin şəxs, ən yaxşı halda, Azərbaycana münasibətdə neytral ola bilər. Bizim üçün ən pisi Rusiya dövlətinin Ermənistanı dəstəkləməsidir ki, bu hal 200 ildən çoxdur davam edir.

## *"Ayrı-ayrı şəxslərin mövqeyi heç nəyi dəyişmir"*

XİN rəhbəri Lavrov olduğu halda, həmin nazirlikdə Dağlıq Qarabağ münaqişəsi və keçmiş sovet respublikalarındakı münaqişələrlə məşğul olan diplomatın şəxsi mövqeyi əhəmiyyət kəsb etmir.

Bizim üçün ən arzuolunmaz ssenari Rusiyanın Ermənistanı dəstəkləməsinin davam etməsi və bu geostrategiyanın başında duranlardan birinin Lavrov olmasıdır. Onun tabeliyindəki bütün rusiyalı diplomatlar da nazirin əmr və göstərişlərindən kənara çıxa bilməzlər. Rusiyanın Azərbaycana, Qarabağ münaqişəsinə münasibətinin dəyişməsi üçün onun ümumi strateqiyası dəyişməlidir. Ayrı-ayrı şəxslərin mövqeyi heç nəyi dəyişmir".

***Məhəmmədəli QƏRİBLİ***

**Məlum olduğu kimi, Ermənistan Qarabağa yeni-3-cü yol çəkmək fikrindədir. Bu barədə erməni mətbuatına açıqlamasında Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan danışıb.**

# Ermənistanın 3-cü şose yolu ilə Azərbaycan torpaqlarında möhkəmlənmək planı - ATƏT vasitəçiləri niyə susur...



## *Fikrət Sadıqov: "ATƏT-in Minsk Qrupunun bu məsələdə susması təəssüf doğurur"*

Məlumata görə, bu məqsədlə bu yaxınlarda Xankəndinə gedib, yeni yol da daxil olmaqla, strateji infrastruktur layihələrini müzakirə ediblər. Qriqoryanın sözlərinə görə, artıq 2020-ci ildə 150 kilometrədək yeni yolun çəkilişinə başlamaq planlaşdırılır. Plana əsasən, bu yol Ermənistanın Qafan rayonu ilə Azərbaycanın Xocavənd rayonunu birləşdirməlidir.

Qeyd edək ki, hazırda Ermənistanla Qarabağı Azərbaycanın Kəlbəcər və Laçın rayonlarından keçən iki yol birləşdirir.

Bu məlumatı Qarabağdakı separatçı rejimin sözçüsü David Babayan da təsdiqləyib. O, 2020-ci ildə çəkilişə başlasalar, yolun 2-3 ilə hazır ola biləcəyini deyib. Ermənistanın Müdafiə Nazirliyinin sözçüsü Artsurun Ovannisyan hazırda mövcud Qafan-Qarabağ yolunun çox pis vəziyyətdə olması səbəbindən nazirliyin ondan yalnız hərbi məqsədlər üçün istifadə etdiyini bildirib.

Ermənistanlı politoloq Akov Badalyansa deyir ki, yeni yol İranla əlaqə, həmçinin, həmin ərazidə əhalinin yerləşdirilməsi baxımından da çox vacib layihədir.

Onu da qeyd edək ki, bu ilin əvvəllərində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan işğal altındakı Füzuli rayonunun ərazisinə gələrək "Arazboyu ərazilərin məskunlaşdırılması" planı haqda danışıb. Vanetsyan bildirib ki, onun hazırda dayandığı ərazilərin qaytarılmasından söhbət belə gedə bilməz, əksinə, həmin əraziləri məskunlaşdırmaq planı hazırlanır. Bu baxımdan, Qafanı Xocavəndlə birləşdirəcək üçüncü yolun çəkilməsi Ermənistanın Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonları məskunlaşdırmaq planlarına xidmət edir.

Rəsmi Bakı Xarici İşlər Nazirliyi səviyyəsində buna öz etirazını bildirib. Maraqlıdır ki, ermənilərin Qarabağa üçüncü yol çəkmək planını rəsmi şəkildə bəyan etmələrinə rəğmən, münaqişənin həllində vasitəçilik edəm ATƏT-in Minsk Qrupu buna hansısa formada reaksiya vermir. Ən azından, etiraz edə bilərdilər ki, belə təşəbbüslər danışıqlar prosesinə zərər vurur. Ancaq, göründüyü kimi, ATƏT bunu susqunluqla izləyir.

*"Qurum münaqişənin dinc yolla həllində maraqlıdırsa, o zaman buna öz münasibətini bildirməlidir"*

Məsələyə münasibət bildirən keçmiş diplomat, politoloq Fikrət Sadıqovun sözlərinə görə, ATƏT-in bunu susqunluqla izləməsi təəssüf doğurur: "Ermənistanın belə bir layihəsi var, amma bunun iqtisadi baxımdan necə reallaşdırılacağı məlum deyil. İstənilən halda, bu yolu çəkmək üçün böyük bir vəsait lazımdır. Belə yolun çəkilməsi böyük xərc tələb edir. Düşünmürəm ki, bu, yaxın gələcəkdə asanlıqla mümkün olsun. Ancaq bu o demək deyil ki, ATƏT-in Minsk Qrupu buna seyrçi mövqedən yanaşmalıdır. ATƏT-in Minsk Qrupunun bu məsələdə susması təəssüf doğurur. Qurum münaqişənin dinc yolla həllində maraqlıdırsa, o zaman buna öz münasibətini bildirməlidir. Onlar seyrçi mövqedə qalmamalıdırlar. Çünki bəlkə də ATƏT-in bu cür seyrçi mövqedən çıxış etməsi üzündən Ermənistan belə layihələrin yaranmasına imza atır.

Bax, budur əsas problem. O üzdən, bu cür ikili yanaşmalar olmamalıdır. Ancaq buna rəğmən, biz bu məsələni gündəmdə saxlamalıyıq. Nəinki ATƏT, hətta digər beynəlxalq təşkilatların da diqqətini buna cəlb etməliyik. Bütün beynəlxalq təşkilatlar bizim ərazi bütövlüyümüzü tanıyır. Belədirsə, o zaman reaksiyalar adekvat olmalıdır".

***Vidadi ORDAHALLI***

**Məlum olduğu kimi, Türkiyənin Rusiyadan aldığı S-400 zenit kompleksləri 12 iyuldan etibarən hissə-hissə Türkiyəyə gətirildi. Türkiyənin ABŞ təhdidlərinə rəğmən, S-400-ü alması ABŞ siyasi palitrasında ciddi səs-küyə səbəb oldu.**

# Ermənistanın demarşı - S-400-lərə görə ABŞ genosidi tanıya bilər(?)



## *Məhəmməd Əsədullazadə: "Vaşinqton iki ölkə arasında S-400-lə bağlı soyuqlaşmaya baxmayaraq, "qırmızı xətt"i keçməyəcək"*

S-400-lərin Türkiyəyə gətirilməsinə Tramp ilk əvvəl səssiz qalsa da, ABŞ parlamentində bu hadisə cidddi rezonansa səbəb oldu. Parlamentin hər iki palatasında da müxtəlif qruplar Türkiyəyə sanksiyaların tətbiq edilməsi üçün hökumətə təzyiq etməyə başlayıblar. Türkiyənin Rusiyadan S-400 zenit komplekslərini alması səbəbindən ona sanksiyaların tətbiq edilməsi məsələsində parlamentdə təmsil olunan iki əsas partiya nümayəndələri - demokratlar və respublikaçılar anlaşıblar.

ABŞ-ın xarici siyasətinə özünəməxsus təsiri olan parlamentin yuxarı palatası - Senatda bu məsələ müzakirə edilib və senatorlar Trampı Türkiyəyə sanksiya tətbiq etməyə çağırıblar. Öz növbəsində, ABŞ parlamentinin aşağı palatası olan Nümayəndələr Palatasında Türkiyəyə qarşı bir qanun layihəsi hazırlanıb. Xüsusən də Türkiyənin F-35 proqramından kənarlaşdırılması və sözügedən təyyarələrin bu ölkəyə ixracının dayandırılması gündəmdədir.

Bu arada erməni mediası da Türkiyə və ABŞ arasında baş verənləri böyük maraqla izləyir. Onlar belə fikirlər səsləndirirlər ki, S-400-lərin alınması davam edərsə, 2020-ci ilin aprelində ABŞ qondarma "erməni soyqırımı"nı tanıyacaq. CXP-dən kənarlaşdırılan və müstəqil millət vəkili olan Öztürk Yılmazın bununla bağlı fikirlərini erməni mediası geniş tirajlayıb. Onun fikrincə, S-400-lərə görə "erməni soyqırımı"nın tanınması ilə bağlı qətnamənin Konqresin gündəliyinə salınacağı və daha sonra qəbul ediləcəyi ehtimal olunur.

Bütün hallarda, bu fikirlər nə dərəcədə realdır? ABŞ Türkiyə S-400 raketlərini aldığına görə qondarma "erməni soyqırımı"nı tanıya bilərmi?

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən politoloq Məhəmməd Əsədullazadə bunu istisna etdi: "Türkiyə-ABŞ münasibətlərində müəyyən siyasi soyuqluqdan istifadəyə cəhd daim ermənilərin xislətində olub. Hazırda iki ölkə arasında S-400 böhranından istifadəyə cəhd edən Ermənistanın bu məkrli planı da fiaskoya uğrayacaq. Qeyd edim ki, ABŞ administrasiyası "soyqırım" məsələsində daha ehtiyatlı davranır və bu məsələyə toxunmur. Baxmayaraq ki, hər bir namizəd seçki kampaniyasında bunu tanıyacaqlarını vurğulasa da, son nəticədə buna getməyib. Bu dəfə də məhz belə olacaq. Vaşinqton iki ölkə arasında S-400-lə bağlı soyuqlaşmaya baxmayaraq, "qırmızı xətt"i keçməyəcək.

*"Ermənistana və lobbiyə görə Türkiyə kimi önəmli ölkəni itirmək Birləşmiş Ştatların strateji səhvi olar"*

Çünki dərin dövlət Türkiyə ilə strateji əlaqələrin qorunmasında maraqlıdır. Ermənistana və lobbiyə görə Türkiyə kimi önəmli ölkəni itirmək Vaşinqtonun strateji səhvi olar. Ümumiyyətlə, ABŞ-ın qondarma "soyqırımı" tanımasında da faciəli bir şey yoxdur.

Bununla heç nə dəyişmir. Türkiyə daim arxivləri açıq tutur. ABŞ-ın özündə də arxivlərdə belə bir soyqırımın olmadığı barədə məlumatlar var. Ona görə də ABŞ bu addımı atsa, ilk növbədə, öz tarixinə kölgə salmış olar . Tarixi uydurmanı böyük siyasətə gətirmək ABŞ üçün səhv strategiyadır. Hesab edirəm ki, ermənilərin bu avantürası baş tutmayacaq".

***Vidadi ORDAHALLI***

# Ermənistanda parlament idarəçiliyinə Rusiyadan rəsmi neqativ qiymət...

**Rusiya Federasiya Şurasının sədri Valentina Matvienko Rusiyanın idarəetmə metodunu dəyişməsinə münasibət bildirib və bunu məqbul saymayıb. Bu xüsusda o, misal kimi, Ermənistanı göstərib. Qeyd edib ki, oradakı dəyişikliklərdən sonrakı mənzərə göz qabağındadır.**



## *Elşən Mustafayev: "Bütün demokratik ənənələr və idarəetmə metodlarının Ermənistanın nəbzi ilə uzlaşmaması təbiidir"*

Rusiya rəsmisinin bu münasibəti Ermənistandakıları bərk qıcıqlandırıb. Matvienkonun şərhini belə yozurlar ki, Rusiya üçün öz adamlarının olduğu mütləq hakimiyyət daha məqbuldur və guya indi onlar Ermənistana əvvəlki kimi təsir edə bilmirlər. Başqa rəylərdə bildirilir ki, bütün bu cəhdlər müxtəlif yollarla Putinin hakimiyyətini uzatmağa hesablanıb. Bir sözlə, Rusiya rəsmisinin kiçik tənqidindən ermənilər ciddi nəticələr çıxarıblar. Moskvadan verilən neqativ qiymətə Ermənistandan gələn həssas reaksiyaları nə ilə izah etmək olar?

Ekspert Elşən Mustafayev "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, Matvienkonun hansı məqsədlə həmin ifadəni işlətməsini önə çəkmək lazım deyil: "Gəlin görək, Rusiya rəsmisinin bildirdiyi irad nə dərəcədə doğrudur, nə dərəcədə yox? Parlament üsul-idarəsi doğrudan da Ermənistan kimi ölkə üçün xarakterik deyil. Dünyada ölkələrin idarə olunması üçün bir çox klassik model var. Onlardan biri də parlament üsul-idarəsidir. Bu daha çox demokratik ölkələr üçün xarakterikdir. Yəni Ermənistan kimi sözdə demokrat olan dövlətlər üçün yox. Sistem belədir ki, xalqın səs verdiyi deputatlar hökumət formalaşdırır. Hökumətin başçısı da parlamentdə seçilir və ölkəyə faktiki rəhbərlik ona tapşırılır. Ermənistanda isə bu proses bic doğulub. Yəni Ermənistan heç də demokratiyanı yüksək səviyyədə mənimsədiyinə görə bu yolu tutmayıb. Orada hakimiyyəti qəsb etmiş klanın nümayəndəsi üçüncü dəfə prezident seçilə bilmirdi. Ona görə də bu yolla hakimiyyətdə qalmaq istəyirdi. Məhz bu imitasiyaya görə də ölkədə inqilab oldu və Paşinyan hakimiyyətə gəldi. Məntiqlə Paşinyan Baş nazir ola bilməzdi. Çünki onu parlament seçməliydi, həmin qurumdakı çoxluq isə Sarkisyan tərəfdarlarında idi. Nəticə nə oldu? Paşinyan parlament üsul-idarəsi vasitəsinin qaydalarını tətbiq etməklə, zor gücü ilə hakimiyyəti qəsb etdi. Yəni Ermənistan tərəqqi yolu ilə bu prosesi mənimsəməyib. Ona zorla bunu yeridiblər. Biriləri hakimiyyətə gəlmək üçün bu üsulu seçib, digərləri isə hakimiyyətdə qalmağa görə. Hazırda Ermənistan rəhbərliyinin özü də bu üsuludan narazıdır. Çünki o cür ölkələri idarə edən adamlar mütləq hakimiyyət istəyirlər. Ermənistanda Prezidentlə Baş nazir arasında olan narazılığın kökündə də bu amil durur. Təsadüfi deyil ki, Ermənistan rəhbərliyi Konstitusiyanın dəyişməsinin vacibliyini dəfələrlə vurğulayır.

Açıq şəkildə deyirlər ki, həmin ali qanun saxtakarlar tərəfindən səs verilərək qəbul edilib. Bu ideyanın əsas məqsədi isə köhnə idarəetməyə qayıtmaqdır. Buna görə də Matvienkonun haqq sözünü əbəs yerə qəbul etmək istəmirlər. Bütün demokratik ənənələr və idarəetmə metodlarının Ermənistanın nəbzi ilə uzlaşmaması təbiidir. Çünki ora dövlət funksiyasını çoxdan itirib".

***Məhəmmədəli QƏRİBLİ***

# Ermənistandan Qarabağa üçüncü şose yolu - ermənilər dincliklə həll istəmir

**Ermənistan Qarabağa üçüncü yolun çəkilişinə hazırlaşır. Bu haqda Ermənistan Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan müsahibəsində deyib. Qriqoryanın bildirdiyinə görə, hökumət 2020-ci ildə Dağlıq Qarabağı Ermənistanla birləşdirən üçüncü yolun çəkilişini planlaşdırır.**



## *Hatəm Cabbarlı: "İranın bu qanunsuz layihənin həyata keçirilməsinə səssiz qalması birbaşa Ermənistan hökumətinə olan siyasi dəstəkdir"*

Bu yol Ermənistanın Qafan şəhərini işğal altındakı Hadrut rayonuna (Xocavənd) birləşdirəcək, uzunluğu 150 kilometr olacaq. Təhlükəsizlik Şurasının katibi onu da bildirib ki, hökumət yolun çəkilişi haqda qərarı artıq qəbul edib və müvafiq maliyyə tapıb. Hərçənd, Ərazi İnkişaf və İnfrastruktur Nazirliyi bildirir ki, layihə hələ işlənib hazırlanma mərhələsindədir, əlavə detalllar barədə açıqlama verə bilməzlər.

Ermənistanı işğal altındakı Qarabağla birləşdirən üçüncü yolun çəkilişi ideyası düşmən ölkədə neçə vaxtdır müzakirə olunurdu. Lakin bu ideya Nikol Paşinyanın hakimiyyətə gəlişindən sonra reallaşma mərhələsinə daxil olub. İlin əvvəllərində Ermənistan Milli Təhlükəsizlik Xidmətinin rəhbəri Artur Vanetsyan işğal altındakı Füzuli rayonunun ərazisinə gələrək "Arazboyu ərazilərin məskunlaşdırılması" planı haqda danışmışdı. Vanetsyan bildirmişdi ki, onun hazırda dayandığı ərazilərin qaytarılmasından söhbət belə gedə bilməz, əksinə, həmin əraziləri məskunlaşdırmaq planı hazırlanır. Bu baxımdan Qafanı Xocavəndlə birləşdirəcək üçüncü yolun çəkilməsi Ermənistanın Dağlıq Qarabağ ətrafındakı işğal edilmiş rayonları məskunlaşdırmaq planlarına xidmət edir. Son dövrlərə qədər Ermənistanı Dağlıq Qarabağla birləşdirən yeganə yol Gorus-Laçın-Xankəndi yolu idi. Lakin bir neçə il əvvəl Ermənistan Qarabağa ikinci yolu çəkdi, bu yol qədim Göyçə mahalını işğal altındakı Kəlbəcər rayonu ilə birləşdirir. İndi isə üçüncü yol planı açıqlanır. Ən maraqlısı isə budur ki, Araz çayı boyunca nəzərdə tutulan bu məskunlaşma planına uyğun olaraq yol çəkilişinə həmin ərazilərlə həmsərhəd olan İran etirazını bildirmir. İranının buna reaksiyası olmalıdırmı?

Siyasi elmlər doktoru Hatəm Cabbarlı "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, mövcud şəraitdə Ermənistanın bu addımlarını sadəcə hərbi və təhlükəsizlik məsələləri ilə izah etmək mümkündür: "Çünki Ermənistan Qubadlı üzərindən salınacaq yola 150 milyondan çox pul xərcləməyi nəzərdə tutur. Ermənistanın bu layihə ilə turizm infrastrukturunu yaxşılaşdırmaq niyyətini güdməsi ən axırıncı ehtimallardan biridir. Layihənin Araz çayı boyunca həyata keçməsi və çayın o tərəfində İranın olması da diqqəti cəlb edir. Bu layhənin gerçəkləşməsinə İranın münasibətinin necə olacağı ilə bağlı mövqeyə hələlik rast gəlinmir. Amma İranın səsiz qalması məsələyə münasibətinə bir işarədir. Dağlıq Qarabağ probleminin baş qaldırdığı 1988-ci ildən indiyə qədər olan dönəmə nəzər yetirdikdə, İranın Dağlıq Qarabağ probleminin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində həll edilməsinə dair ciddi siyasi iradə nümayiş etdirdiyinin şahidi olmuruq. Bura Şuşanın işğalı ərəfəsindəki vasitəçilik təşəbbüsünü və bəzi siyasi gedişlərini göstərmək olar. İranın bu qanunsuz layihənin həyata keçirilməsinə səssiz qalması birbaşa Ermənistan hökumətinə olan siyasi dəstəkdir. Diplomatiyada səssiz qalmağın özü də bir razılıq əlaməti sayılır. Ermənistan 150 km-lik yolu inşa etməklə işğal altında olan ərazilərə gedən yolların sayını çoxaltmaq istəyir.

Bu da sırf təhlükəsizlik və hərbi niyyətlərə bağlı olan məsələdir. Azərbaycan buna, təbii ki, etiraz edir.

Amma rəsmi dairələr İranın da məsələyə münasibət bildirməsini tələb etməlidir. Bu həm də Ermənistanın sülh prosesinə sadiq olmadığına dair ən bariz nümunə sayıla bilər. Vasitəçilərin susqunluğu da maraqlı görünür".

***Məhəmmədəli QƏRİBLİ***

**İşğalçı Ermənistanda real vəziyyətin təhlili bu ölkədə sosial-iqtisadi müstəvidə yeni inqilabın olmasını istisna etmir. Digər tərəfdən, baş nazir Nikol Paşinyanın hüquqi müstəvidə sıxışdırdığı "Qarabağ klanı" da hələ əlində olan böyük imkanlardan istfiadə edib sosial sferada vəziyyəti daha da pisləşdirməyə çalışır.**

# "Qarabağ klanı" revanşa başlayır

Əsas məqsəd əhalidə mövcud hakimiyyətə qarşı qəzəb hissini körükləməkdir. Eyni zamanda, "Qarabağ klanı" Rusiyanın da yardımı ilə digər istiqamətlər üzrə Paşinyanın mövqelərini zəifləmək üçün addımlar atır. Bu istiqamətlərdən biri "Qarabağ klanı"nın əsas liderlərindən sayılan sabiq prezident Robert Köçəryanın azad edilməsidir. Erməni mediası yazır ki, əslində, Köçəryanın sentyabra kimi azad edilməsinin vacibliyi ilə bağlı Kreml İrəvana sifariş göndərib. Amma İrəvan buna riayət etmək istəmir. Əksinə, Robert Köçəryanı həbsdən azad edən hakim David Qriqoryanın səlahiyyətləri belə dayandırılıb.

Xatırladaq ki, bu ilin may ayında İrəvan birinci instansiya şəhər məhkəməsinin hakimi Qriqoryan qondarma Dağlıq Qarabağ respublikasının liderlərinin təlimatı ilə Köçəryanı həbsdən azad etmiş, işi Konstitusiya məhkəməsinə göndərmişdi. Ermənistan Apelyasiya Məhkəməsi isə sabiq prezidentin azadlığa buraxılması ilə bağlı qərarı ləğv edib. Xüsusi İstintaq İdarəsinin mətbuat katibi Marina Ohancanyan bildirib ki, Qriqoryanla bağlı məhkəmə işi başladılıb və onun evində axtarış aparılıb. "Qarabağ klanı" bəyan edir ki, bu vəziyyət onlara qarşı hakimiyyətin təzyiqlərinin davam etməsinin göstəricisidir və məsələyə, daxili qüvvələrlə yanaşı, Kreml də sərt mövqe sərgiləməlidir. Bununla yanaşı, "Qarabağ klanı" Ermənistan hökumət binası qarşısında etiraz aksiyası da həyata keçirib. Aksiya iştirakçıları "Köçəryan qəhrəman, Nikol kələkbaz" şüarları səsləndiriblər. Köçəryanın tərəfdarları qeyd edirlər ki, bir gün ədalət gününün gələcəyinə ümid edirlər. Amma hakimiyyət, hələ ki, təzyiqlər qarşısında geri çəkilmir. Əksinə, Ermənistanın Baş Prokurorluğu, Köçəryanla yanaşı, konstitusiya quruluşunu dəyişmək cəhdi ittihamı ilə "Qarabağ klanı"na daxil olan digər keçmiş vəzifəli şəxslər - baş nazirin sabiq müavini Armen Gevorqyan, KTMT-nin keçmiş baş katibi Yuri Xaçaturov və sabiq müdafiə naziri Seyran Ohanyanla da bağlı ittiham aktı hazırlayıb və onları məhkəməyə göndərib. Keçmiş prezident Serj Sarksiyanın da barəsində təhqiqat gedir. Bu durumda "Qarabağ klanı" əsas diqqəti ölkədə sosial-iqtisadi durumun pisləşməsinə yönəldir. "168.jam" nəşri yazır ki, 15 aylıq baş nazirlik dönəmində Nikol Paşinyanın sosial-iqtisadi müstəvidə hansısa müsbət yeniliklər edə bilməməsi bu fonda "Qarabağ klanı"nın maraqlarına işləyir.



Bildirilir ki, Ermənistanda sürətli dəyişikliklər ümidləri doğrultmayıb və bundan sonra da yaxşılığa doğru nəsə dəyişməyəcək: "İnqilabın vəd etdiyi nəticələrin ictimaiyyətə əlçatan olması üçün hələ nə qədər vaxt lazım olacağını demək çətindir. Bu templə davam edərsə, birmənalı şəkildə demək olar ki, bu tez bir zamanda baş verməyəcək. Ümumiyyətlə, bunun baş verib-verməyəcəyi sual altındadır. 15 aylıq idarəetmə onu göstərdi ki, hakimiyyət ictimaiyyətin gözləntilərini qane etməyə hazır deyil. Hakimiyyət dəyişikliyi dövründə iqtisadi vəziyyət və sosial həyat heç bir halda yaxşılaşmayıb. Cəmiyyətin böyük bir hissəsi, keçmişdə olduğu kimi, zorla yaşamını təmin etməyə davam edir. Onların gəliri əvvəl olduğundan da aşağıdır. Buna görə də, demək olar ki, yeni hakimiyyət də xalqa indiyədək heç bir şey verməyib. Əmək haqqı ödənişi sahəsində, demək olar, heç bir dəyişiklik baş tutmayıb. Lakin idarəetmə sahəsinin mövqe tutan "Mənim addımım"çılar dövlət vəsaiti hesabına özlərini dəbdəbəli şəkildə mükafatlandırmağa başlayıblar. Halbuki, Ermənistanda baş tutan hakimiyyət dəyişikliyindən sonra hələ də təqaüdlər artırılmayıb. Əlbəttə, gözlənirdi ki, bu, növbəti ildən başlayaraq 10% və ya 3-4 min dram həcmində baş tutacaq. Heç olmasa hakimiyyət bunu inqilabın ciddi nailiyyətlərindən biri hesab edə bilər. Lakin hakimiyyət dəyişikliyi baş verməsəydi belə, təqaüdlərin bu cür artımının baş verməyəcəyini düşünmək olmazdı. Çünki əvvəlki hakimiyyət artıq belə bir artımın əsasını qoymuşdu. Əksinə, indiki hakimiyyət əvvəlki hakimiyyətin həyata keçirməli olduğu proqramları bir qədər də təxirə salmış oldu. Keçmişdə də təqaüdlər vaxtaşırı artırılıb, lakin bunun kifayət edib-etmədiyi başqa bir mövzudur. Ermənistanda təqaüdlər həddindən artıq aşağıdır. Gözlənilən 10%-lik artımdan sonra vəziyyətin dəyişəcəyini gözləmək doğru deyil. Yenə də təqaüdlərin həcminin aşağı olması davam edəcək. Yeni hökumət bu sahədə böyük addım atmağa qadir olmadı. 15 aylıq baş nazirlik dönəmində Nikol Paşinyan cəmiyyətin bu hissəsinin sosial vəziyyətinin yüngülləşdirilməsi üçün, demək olar ki, heç bir şey etməyib. Belə ki, cəmiyyətin həmin hissəsi bundan sonra da keçmişdə olduğu kimi pis şəraitdə yaşamağa davam edəcək. İnqilabın 15 aylıq hakimiyyəti dövründə Ermənistandakı qiymətlər aşağı düşmədən qalmaqda davam edir. Bir tərəfdən cəmiyyətin gəlirləri artmayıb, digər tərəfdən hər tərəfdə bahalaşma baş verib. İlkin tələbat mallarının qiymət artımı bəzən 60-70%-ə çatır. Bu da sosial gərginliyi artırır. Cəmiyyətin hökumətin fəaliyyətindən narazılığı təsadüfi deyil. Bu məsələ keçmiş hakimiyyət üzvlərinin revanş ambisiyaları kimi təqdim edilməyə çalışılsa da, sosial vəziyyətin ölkədə yaxşılaşmadığı fakt olaraq qalır. İnsanların işləməyə və ailə saxlamağa imkanı yoxdur".

Məsələyə eyni prizmadan yanaşan "Jamanak" qəzeti isə yazır ki, Ermənistan hökumətinin son 1 illik fəaliyyətinin xüsusiyyətləri təhlil edilməyə çalışılsa, bu halda 3 əsas yanaşma üzərində dayanılacaq: "Bu yanaşmalar qısamüddətli populist qərarların verilməsi, statistika manipulyasiyası və plagiat fəaliyyətlərdir. Bu yanaşmanın sübutu təəssüfdoğurucu həqiqətdir. Paşinyanın rəhbərlik etdiyi kabinetin hətta 1 illik fəaliyyətdən sonra belə uzunmüddətli siyasi fəlsəfə və ideologiya yaradılması və bunun həyata keçirilməsi imkanlarına dair aydın strategiyası yoxdur. Strategiyanın olmaması, xüsusilə özünü son günlərdə Ermənistanın şimal-şərqində meşə oğurluğu probleminin partlayışa səbəb olması ilə büruzə verdi. Bu hadisə dövlət üçün ciddi imtahan idi və ölkəni idarə edən komanda bu imtahandan keçmədi. Problem və onun ətrafında yaranan mübahisələr fonunda Paşinyan kabinetinin məişət mühitinin qorunması və ətraf mühitin problemləri ilə bağlı strategiyasının olub-olmadığı müəyyən edilmədi. Sanki belə bir strategiya ümumiyyətlə yoxdur və hökumət siyasi məqsədyönlülük və maraqlara əsasən ayrı-ayrı problemlərə reaksiya verir. İcevan meşələrinə gəldikdə, kəskin reaksiya verilməsi məqsədəuyğun olsa da, Amulsar mədəni məsələsində fəaliyyətsiz sükut davam edir. Birinci halda meşə ilə bağlı məsələdə dövləti şantaj etmək olmaz deyilirsə, ikinci halda dövləti nəinki şantaj etmək, hətta buna həvəsləndirməyin də mümkün olduğu nəzərə çarpır. Bu məntiqlə Ermənistan hakimiyyətinin fəaliyyəti reytinqin xilas edilməsi səylərinə doğru dəyişikliyə uğrayıb. Bu cəmi bir nümunədə göstərilsə də, sözsüz ki, problem bütün sahələrdə - təhsildən tutmuş mədəniyyətə, o cümlədən iqtisadiyyatadək - mövcuddur. Hakimiyyət komandasının əsas məqsədi yüksək reytinqi necə qoruyub saxlamaqdan ibarətdir. Hakimiyyət istənilən yolla fasiləsiz olaraq öz reytinqini xilas etmək, xalqı tərif və minnətdarlığın bitmədiyi atəşfəşanlığa cəlb etmək istəyir. Məsələ görülən işlər deyil, bu işlərin ətrafında qaldırılan süni hay-küy, heç bir əsası olmayan populizm və lovğalıqdır". Məhz bu durumdan maksimal dərəcədə faydalanmağa çalışan "Qarabağ klanı" üçün əsas məqsəd indi xalqı hakimiyyətə qarşı ayağa qaldırmaq və ölkədə yeni inqilab təşkil etməkdir.

***Tahir TAĞIYEV***

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondu

KİVDF

www.kivdf.gov.az

**Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi**

# Azərbaycanın Qarabağ diplomatiyasının yeni üstünlüyü - Ermənistan milli təhlükəsizlik strategiyasını dəyişir...



**Azərbaycanın böyük uğurla həyata keçirdiyi xarici siyasət bu gün beynəlxalq miqyasda Ermənistanın işğalçı siyasətinin tam şəkildə ifşa edilməsi ilə nəticələnib. Elə bunun nəticəsidir ki, Ermənistanın işğal siyasətinə qarşı beynəlxalq hüquqi müstəvidə təpkilər artır, zəbt edilmiş ərazilərdən erməni qoşunlarının çıxarılması tələb olunur.**

Eyni zamanda məsələnin maraqlı tərəflərindən biri həm də yenə beynəlxalq aləmdə Ermənistanın Azərbaycan tərəfindən daha ağır duruma salınmasıdır. Söhbət burada böyük güclərin Ermənistana qarşı mövqe tutmalarından gedir.

Məlumdur ki, İrəvanın işğal siyasətini indiyə qədər davam etdirməsinin ümdə səbəbi müəyyən beynəlxalq güclərin, dövlətlərin Ermənistana himayədarlıq etməsi nəticəsində mümkün olub. Amma son dövrlərdə bu istiqamətdə fərqli bir vəziyyətin yaranması müşahidə edilir. Söhbət konkret olaraq Qafqazda hadisələrin inkişaf axarına təsir edə biləcək güclərdən, xüsusən də Rusiya və ABŞ-dan gedir. Sonuncuların Ermənistana münasibəti indi heç də İrəvanın maraqları ilə üst-üstə düşmür. Əksinə, Ermənistanda etiraf edirlər ki, bu ölkələrin İrəvana müxtəlif istiqamətlərdə, o cümlədən də Dağlıq Qarabağ məsələsində təzyiqləri artıb. Özü də burada Azərbaycanın diplomatik gedişlərinin də öz sözünü deməsi artıq açıq bəyan olunur. Bütün bunların nəticəsində indi Dağlıq Qarabağ münaqişəsinin nizama salınması prosesində Azərbaycan getdikcə daha üstün mövqe sahibinə çevrilir. Bu səpkidə dünyada da açıq bəyan olunur ki, problem yalnız Azərbaycanın ərazi bütövlüyü və ölkənin beynəlxalq səviyyədə tanınmış sərhədləri çərçivəsində həllini tapmalıdır. Eyni zamanda görünən həm də budur ki, dünya, Ermənistandan fərqli olaraq, Azərbaycana etibarlı tərəflaş qismində yaxınlaşır. Burada həm də o nəzərə alınır ki, Azərbaycan Cənubi Qafqaz regionunda əsas söz sahibi olan dövlət kimi mürəkkəb geosiyasi şəraitdə müstəqil xarici siyasət həyata keçirir. Bu gün Azərbaycan regionun yeganə ölkəsidir ki, düşünülmüş xarici siyasəti ilə regional təhlükəsizliyin təmin olunması istiqamətində ardıcıl və sistemli addımlar atır. Azərbaycan dövlətinin həyata keçirdiyi enerji layihələri, regional inteqrasiyaya xidmət edən əməkdaşlıq formatları Cənubi Qafqazda sabitliyin təmin edilməsində mühüm rol oynayır. Bütün bunlar ona gətirib çıxarır ki, bu gün Azərbaycanın dünya miqyasında nüfuzu xeyli artıb. Təbii ki, belə vəziyyət Dağlıq Qarabağ münaqişəsinin gedişinə də təsirsiz ötüşmür.

İndi Ermənistanda da bildirilir ik, bu gedişlə Azərbaycan Qarabağ münaqişəsinin həlli istiqamətində istədiyi nəticəyə daha tez nail olacaq. Çünki regionda hadisələrə təsir etmək gücündə olan ölkələr də tədricən Azərbaycanın yanında yer almağa başlayıb. "İşıqlı Ermənistan" partiyası fraksiyasının deputatı Arman Babacanyan vurğulayır ki, Azərbaycandan fərqli olaraq, Ermənistan böyük güclərlə əməkdaşlığını inkişaf etdirə bilməyib. Əksinə, son bir il ərzində bu istiqamətdə ciddi problemlər meydana çıxıb. Onun sözlərinə görə, ölkədə iqilabdan sonra xarici siyasətdə hər hansı bir dəyişiklik görülmür, əksinə, vəziyyət Ermənistanın əleyhinə getdikcə pisləşir. Arman Babacanyan vurğulayır ki, bu durum özündə bir çox narahatlıqları ehtiva edir: "Ermənistan Milli Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan mətbuata açıqlama ilə çıxış edərək, Ermənistanın həyati əhəmiyyətə malik bir sıra problemləri, o cümlədən hazırlanma mərhələsində olan Milli Təhlükəsizlik strategiyası barədə danışıb. Qriqoryan bəyan edib ki, Milli Təhlükəsizliyin yeni strategiyasının dayağı Ermənistan Silahlı Qüvvələri, ordu hesab ediləcək. Problem ondadır ki, ölkənin təhlükəsizliyi daha çox ordunun döyüş qabiliyyətliliyi və silahla komplektləşdirilməsindən asılıdır.

Bəli, bunlar vacib, dövlət üçün həyati əhəmiyyətə malik məsələlərdir və bunların həlli hər hansı strategiyadan asılı olmadan təmin edilməlidir. Milli təhlükəsizlik məsələsi isə kompleks ifadədir. Burada Silahlı Qüvvələr vacib əhəmiyyət daşısa da, dayaq əhəmiyyətli olmamalıdır. Milli təhlükəsizliyin strateji dayaqları iqtisadi, sosial siyasəti təmin edən strategiyalar və ən vacib olan dövlətin xarici siyasət konsepsiyası olmalıdır. Lakin Qriqoryanın mətbuata açıqlamasında bu sahələrlə bağlı hər hansı ifadə eşidilməyib. Milli təhlükəsizlik konsepsiyasının Silahlı Qüvvələrin üzərinə atılması, faktiki olaraq, əvvəlki onilliklərdə həyata keçirilən siyasətin davamı mənasını daşıyır". Babacanyan bu qurumların ordu ilə bərabər milli təhlükəsizliyin təmin edilməsi məsələsində öz funksiyalarını yerinə yetirməli olduğunu qeyd edir: "Robert Köçəryan və Serj Sarkisyan hakimiyyətləri də eyni qaydada milli təhlükəsizliyin təmin edilməsinin dayaqları olaraq Silahlı Qüvvələri hesab edirdi, lakin bununla yanaşı, ölkəni daxildən dağıdırdılar. Bunun nəticəsində ordu milli təhlükəsizlik problemlərinə və rəqibə müqavimət göstərərkən tək qalırdı. Buna sübut 2016-cı ildə baş verən aprel döyüşləridir. Buna səbəb iqtisadi cəhətdən inkişaf etmiş, rəqabətə dayanıqlı, güclü dövlətin və dövlət insitutlarının olmamasıdır. Buna görə də yeni Ermənistanda milli təhlükəsizliyin təmin edilməsi yalnız ordunun çiyinlərinə qoyula bilməz və qoyulmamalıdır. Dövlət bütün qurumları və alt qurumları ilə birlikdə bu məsələyə qulluq göstərməyi bacarmalı, ordunun yalnız ona həvalə edilmiş fəaliyyətin həyata keçirilməsi ilə məşğul olmasına şərait yaratmalıdır. İqtisadi, sosial və mənəvi cəhətdən təmin edilmiş vətəndaş olmadan, milli təhlükəsizlik kompleksinin təmin edilməsi haqqında danışmaq olmaz.

Milli təhlükəsizliyin təmin edilməsi baxımından xarici siyasətin həddindən artıq vacib əhəmiyyəti var. Bu əhəmiyyət, hətta bəlkə də Silahlı Qüvvələrin üzərinə düşən əhəmiyyətə bərabərdir. Ermənistan elə bir xarici siyasət aparmalıdır ki, bunun nəticəsində ölkənin təhlükəsizliyi beynəlxalq ictimaiyyətin, geosiyasi güc və mərkəzlərin maraq dairəsinə düşə bilsin. Ermənistanda yalnız erməni deyil, beynəlxalq təhlükəsizliyin marağı cəmləşdirilməlidir. Onu elə təmin etmək lazımdır ki, həmin maraq Ermənistanı təxribatlardan uzaq saxlaya bilsin. Bu məsələni isə ordu yox, xarici siyasət, gərgin diplomatiya təmin edə bilər. Bu baxımdan Ermənistanın beynəlxalq aləmdə mövqe tutması həddindən artıq vacibdir. Söhbət dünya dəyərlərinin yaradılması prosesində heç olmasa Ermənistanın təvazökarlıqdan uzaq, əvəzolunmaz rolundan gedir. Məhz bu amil Ermənistanı coğrafi bölgə halından beynəlxalq münasibətlər subyektinə çevirə bilər. Onun təhlükəsizliyinə təhdid olan hədənin neytrallaşdırılmasının, beynəlxalq təhlükəsizlik sistemi ilə bağlı olmasını təmin edə bilər. Ermənistan bu rola yalnız keyfiyyətcə yeni dövlət, rəqabətli iqtisadiyyat və dünya standartlarına uyğun sosial təminatlı həyat tərzi yaratmaq, müasir səhiyyə və təhsil sistemi qurmaqla nail ola bilər. Amma biz bunların heç birinin əlamətini görmürük. Nəticədə bölgədə qüvvələr nisbəti sürətlə dəyişir və burada Ermənistanın geridə qalması açıq müşahidə olunur. Azərbaycanın bundan maksimal dərəcədə istifadə etməyə çalışması isə təbiidir".

Erməni deputat hesab edir ki, İrəvan öz təhlükəsizliyini tamamilə Rusiyanın üstünə yıxmaqla, onu özünün təhlükəsizliyindən faydalanan tərəf halına gətirir: "Başqa cür olduğu halda Ermənistan əvvəlki hakimiyyətin fəaliyyətini davam etdirmiş olacaq. İnqilabdan sonra biz nəinki xarici siyasətdə hər hansı bir dəyişiklik görmürük, eyni zamanda əvvəlki rejimlərin, yəni Köçəryan və Sarkisyan hakimiyyətlərinin həyata keçirdiyi rusiyayönlü və Rusiya qulluqlu təkxətli xarici siyasət görürük. Əslində Rusiya üçün Ermənistanın təhlükəsizliyi yalnız spekulyativ əhəmiyyət daşıyır. Rusiya istənilən geosiyasi oyunda Ermənistanın təhlükəsizliyini qurban verməyə hazırdır. Aprel döyüşlərində bunun şahidi olduq. Lakin Ermənistanın yeni hakimiyyəti bəyan edib ki, xarici siyasət sahəsində əsaslı dönüş olmayacaq. Ermənistan ictimaiyyəti hakimiyyətə dövlətin xarici siyasət kursunu dəyişməyi sifariş etmədiyini qeyd edib. Bəli, ictimaiyyət belə bir birbaşa sifariş irəli sürməyib. Lakin cəmiyyət güclü, rəqabətli və inkişaf edən dövlətin qurulmasını sifariş edib. Bu isə realda xarici siyasət konsepsiyasına yenidən baxılması həyata keçirilmədən mümkün deyil. Bu problemlərə Qriqoryanın mətbuat konfransında heç bir reaksiya verilməyib. Bu şəraitdə milli təhlükəsizliyin hər hansı strategiyası, hətta ən gözəl formalaşdırma və bəyannamələrlə ifadə edilsə belə, Ermənistanın real təhlükəsizlik problemlərini təmin etmək üçün canlı ola bilməz". Bununla yanaşı qeyd olunur ki, hazırda Ermənistanın xarici siyasətində yol verilən yanlışlıqlar Rusiyanın İrəvanla müqayisədə Bakıya daha çox etimad göstərməsinə gətirib çıxarıb. Bu isə Qarabağ məsələsində də Azərbaycanın tədricən Rusiyadan istədiklərini almasına gətirib çıxarcaq. Erməni ekspert Aharon Vardanyan isə qeyd edir ki, İrəvan ABŞ-la münasibətlərdə də ciddi problemlər yaradıb. Onun sözlərinə görə, ABŞ-la münasibət Ermənistan üçün əhəmiyyətli olsa da, İran amili üzündən burada çoxsaylı yanlışlıqlara yol verilib: "Ermənistanın İran-ABŞ münasibətlərində tutduğu mövqe ABŞ-da müsbət qarşılanmır. İran Ermənistan üçün həyati əhəmiyyət daşıyan ölkədir və strateji tərəfdaş olmağa çalışır. ABŞ-la münasibət eyni qaydada bizim üçün əhəmiyyətlidir və bu iki ölkə arasında yaranmış vəziyyətdə Ermənistan hər iki tərəf üçün qəbul oluna biləcək dəqiq mövqe nümayiş etdirə bilmir. Bu da həm ABŞ, həm də İranla münasibətlərimizə mənfi təsir edib. Belə vəziyyət regionda Ermənistanın mövqeyini zəiflədir. Təəssüf ki, bu məsələdə Azərbaycan daha yaxşı siyasət həyata keçirir.Azərbaycandan fərqli olaraq, ABŞ bizim hökumətə təzyiq göstərir. İş aparmaq və fəal siyasət yürütmək lazımdır. Bu olmadığından, Ermənistanın maraqları başqaları tərəfindən arxa plana atılır. Bu hal tam şəkildə Qarabağ məsələsinə də aiddir".

Bütün bunlar bir daha Qarabağ məsələsində hadisələrin inkişaf axarının tam şəkildə ölkəmizin lehinə olduğunu aydın nümayiş etdirir.

*Tahir TAĞIYEV*

**Yazı Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyə dəstəyilə çap olunur.**

# Elman Rüstəmov üçün çox çətin maliyyə dövrü başlayır...

## *Artan valyutanın manatı bahalaşdırmaq təhlükəsi gücləndikcə baş bankir daha mürəkkəb duruma düşür*

**Gələn ildən başlayaraq Azərbaycana daxil olan xarici valyuta kütləsinin daha da artması gözlənir. Bunun əsas səbəblərindən biri gələn ildən başlayaraq Azərbaycan qazının Avropa bazarlarına çıxmasıdır. İlkin mərhələdə Avropaya 10 milyard kubmetr həcmində Azərbaycan qazının çıxması gözlənir.**



Daha sonra isə bu həcm 31 milyard kubmetrə qədər artacaq. Bu isə o deməkdir ki, neftlə yanaşı, təbii qaz da Azərbaycana böyük miqdarda valyuta gətirəcək.

Digər tərəfdən, qeyri-neft sektoru üzrə ixrac həcminin artması ilə turizm, Azərbaycanın ölkə xaricində həyata keçirdiyi çoxsaylı layihələr də valyuta gətirən əsas sahələr sırasında yer almağa başlayıb. Məhz bu durum Azərbaycanın maliyyə sektoruna getdikcə daha çox təsir göstərməyə başlayır. Belə ki, yaranmış vəziyyətdə manatın möhkəmlənməsinə yönəlik təzyiqlər sürətlə artır. Məhz bu səbəbdən indilikdə Mərkəzi Bankın müdaxiləsi olmasa, manat asanlıqla möhkəmlənə, hətta 1 dollar ilk mərhələdə 1,5 manata kimi ucuzlaşardı. Hələlik ölkənin baş bankı prosesin qarşısını almağa çalışır. Amma ölkəyə daxil olan valyuta həcminin artımı fonunda bunu etmək getdikcə çətinləşir. Ona görə hesab edilir ki, qarşıdakı dövr ərzində manatın müəyyən qədər möhkəmlənməsi qaçılmaz olacaq. İndilikdə isə prosesin qarşısını yalnız Mərkəzi bankın müdaxiləsi alır. Bunu Mərkəzi Bankın sədri Elman Rüstəmov da etiarf edir. Onun sözlərinə görə, ilin əvvəlindən Dövlət Neft Fondunun 800 milyon manatlıq satılmayan vəsaiti var. Bu vəsait bazara çıxmır, həmin vəsait bazara çıxsaydı, bu gün manatın məzənnəsi çox əhəmiyyətli dərəcədə möhkəmlənmiş olardı: "Hazırda manat möhkəmlənmə təhlükəsi ilə üzbəüzdür. Amma biz manatın bahalaşmasını istəmirik. Bunun təkcə müsbət deyil, həm də mənfi tərəfləri var"

Sədr bildirib ki, xarici balans və fiskal sistemdən gələn bu təklif manatın əhəmiyyətli məzənnəsini tələb edir: "Stabil valyuta, çox aşağı inflyasiya səviyyəsi, bütövlükdə ehtiyatlarla təmin olunma, aşağı dövlət borcu - bütün bunlar imkan verir ki, yaxın zamanda investisiya reytinqlərini ala bilək. Bu istiqamətlərdə işlərimizi davam etdirməliyik. Bir neçə faktor var ki, onları gücləndirməliyik. Manatın möhkəmlənməsinin isə müsbət və mənfi cəhətləri var. Bu gün sabit məzənnə rejimindəyik. Hazırda inflyasiyanın hədəflənməsi rejiminə keçmək və gələcəkdə manatın üzən tənzimlənməyə keçməsi istiqamətində proqram üzərində çalışırıq". Qeyd edək ki, məhz gələn ildən manatın üzən tənzimlənmə rejimində idarə olunması gözlənir. Elə bu dövrdən başlayaraq manatın möhkəmlənməsi qaçılmaz sayılır. İndilikdə isə Mərkəzi Bankın manatın möhkəmlənməsinin qarşısını alması bir sıra səbəblərlə bağlıdır. Belə ki, hazırda manatın möhkəmlənməsi qeyri-neft ixracatı və iqtisadiyyatın diversifikasiyası baxımdan arzuolunan deyil. Bu fonda mövcud məzənnəni qoruyub saxlamaq məqsədəuyğun sayılır. Baş bank üçün mövcud məzənnəni qoruyub saxlamağın daha prioritet olduğu hiss edilir. Bu, bir tərəfdən Azərbaycan qeyri-neft məhsullarının rəqabətqabiliyyətliliyinin qorunub saxlanmasına gətirib çıxarar, digər tərəfdən isə ixrac həcmini artırar. Onu da nəzərə almaq lazımdır ki, manat möhkəmləndikcə, Neft Fondundan büdcəyə dollar transfertlərinin həcmi artır. Çünki Neft Fondu büdcəyə transfertləri manatla etməlidir.

Manat nə qədər ucuz olursa, buna az dollar sərf olunur. Manat möhkəmləndikcə daha çox dollar realizasiya edilir. Ona görə də Mərkəzi Bank da, hökumət də manatın ciddi şəkildə möhkəmlənməsində maraqlı deyil. Amma gələn ildən manatın tədricən möhkəmlənməyə başlaması qaçılmaz sayılır. Çünki artıq hökumət üzən məzənnə rejiminə keçid edir. Bu fonda, ekspertlərə görə, manatın ciddi möhkəmlənməsinin şahidi olacağıq. Eyni zamanda nəzərə almaq lazımdır ki, bu ilin sonundan ABŞ valyutasının ucuzlaşma prosesi başlanır. Artıq ABŞ hökuməti dolları ucuzlaşdırmaq hazırlığına başlayıb. "JP Morgan" bankının hesablamalarına görə, dolların dünya üzrə zəifləməsi bu ilin sonunda başlayacaq və Federal Ehtiyat Sistemi bu tendensiyanın qarşısını ala bilməyəcək. Hesab edilir ki, gələn ilin ikinci yarısınadək dolların köklü şəkildə zəifləməsinin şahidi olmaq olar. Təbii ki, bütün bunlar manatıqn da məzənnəsinə öz təsirini göstərəcək. Belə vəziyyətdə Azərbaycanın maliyyə sahəsində atacağı addımlardan biri isə qızıl ehtiyatlarını artması olacaq. Ölkə həm xaricdən qızıl alışını davam etdirəcək, həm də daxildə istehsal edilən qızılı yığıma yönəldəcək.

Xatırladaq ki, hazırda əksər dövlətlər məhz bu istiqamətdə addım atır və bu da qızılı bahalaşdırır. Ölkənin qızıl ehtiyatlarının mövcudluğunu və qızıl yataqlarından "sarı metal"ın hasilatını nəzərə alanda, dünya bazarında qızılın qiymətinin qalxması Azərbaycan üçün müsbət tendensiyadır. Cari ildə isə Azərbaycanda qızıl hasilatında artım müşahidə edilir. 2019-cu ilin yanvar-may aylarının yekunlarına görə, 1,395 ton qızıl hasil olunub ki, bu da, Dövlət Statistika Komitəsinin məlumatına görə, ötən ilin analoji dövrü ilə müqayisədə 9,8% çoxdur. 2018-ci ilin yekunlarına görə, Azərbaycanda qızıl hasilatı 4238,6 kiloqrama çatıb. Bu il hasilatın daha yüksək olması gözlənir.

**Hasil eilən qızıl Dövlət Neft Fondu ilə yanaşı, həm də mərkəzi Bankın ehtiyatlarında cəmləşir. Qızılın etibarlı maliyyə aktivinə çevrilməsi prosesi dünyanın siyasi qeyri-sabitliyi dövründə və ya qlobal iqtisadi böhranın fonunda baş verir. Son illərdə bir çox ölkələr valyuta ehtiyatlarında dollar aktivlərinin payını azaldaraq qızılın payını sürətlə artırır. Azərbaycanın da onların sırasında yer alması qaçılmaz sayılır.**

***Nahid SALAYEV***

**1918-ci ilin mart-aprel aylarında Bakı quberniyasının qəzalarında yerli müsəlman-türk əhalisinə erməni-rus nizami, silahlı quldur dəstələrinin yaşatdıqları qətliam-soyqırım faciələrinin miqyası Azərbaycan dövlətinin bütün sərhədlərini əhatə etdiyindən, xilaskar kimi göydə Allah, yerdə Osmanlı Türkiyəsinin 5-ci Qafqaz İslam Ordusunun (Nuru paşanın başçılığı ilə) və IV Ordusunun (Musa Qarabəkir paşa başda olmaqla) əsgər və zabit heyəti olub.**

# "Şəhidlərə müqəddəs məkan, qazilərə Vətən olan - Azərbaycan"... və yaxud Acıdərə döyüşlərinin tale yazısı...

*"Türklə mübarizədə keçirmədiyim vaxt tarix deyil"*

*(Zəngəzur qəzasında azərbaycanlılara qarşı törədilən soyqırım faciəsinin cəlladı - Qaregin Nijde, 1886-1956).*

Beləcə, həmin ilin artıq iyun ayından başlayaraq ölkəmizin bütün qəzalarında mənfur birləşmiş düşmən qüvvələrinə qarşı Azərbaycan Milli Ordusunun, yerli özünümüdafiə dəstələrinin, ayrı-ayrı igid el qəhrəmanlarının (adları indi geniş ictimaiyyətə bəlli olmayan) qüvvəsi ilə yanaşı, Osmanlı Türk ordusunun peşəkar bölmələri də layiqli müqavimət göstərərək onları geri oturtmağa nail olub, sonda isə bütünlüklə məhv edə bilib. Bu cür qanlı-faciəvi açıq səngər savaşlarından biri Şamaxı qəzasında, "Acı dərə" adlanan yerdə baş verib və tarixin bu olayı bir igid türk qazisinin sonrakı həyatına işıq tutub, onun ağrılı-acılı və fərəhli taleyini bu müqəddəs döyüşün getdiyi yerlərə bağlayıb. Söhbət 5-ci Qafqaz İslam Ordusunun zabiti Camal Əfəndi Abdulla oğlu Hüseyndən (1895-1974) gedir. Bu Qazi əslən Səudiyyə Ərəbistanından olsa da, Fələstinin Qəzza şəhərində doğulub, sonra isə Türkiyənin İzmir şəhərində ali hərbi məktəbdə oxuyaraq, zabit kimi Osmanlı ordusunun tərkibində I Dünya müharibəsinin iştirakçısı olub, hərbi xidmətdə ikən Qafqaz cəbhəsində düşmən qüvvələrinin dindaşlarına qarşı törətdiyi soyqırıma sinə gərmək amacı ilə Vətənimizdə müqəddəs savaşlarını davam etdirib. Şamaxı qəzasının "Acıdərə" döyüş meydanında yaralansa da, yürüşünü Bakı şəhərinədək davam etdirib.

Müəyyən müddət paytaxtda qaldıqdan sonra Quba qəzasında ictimai sabitliyin və asyişin təmin edilməsi məqsədilə mayor rütbəsində bu qəzada işləyib və orada 1921-ci ildə Fatimə adlı xanımla ailə qurub, bu nigahdan Lətafət (1922-1973) dünyaya gəlib. Cavan həyat yoldaşı vəfat etdikdən sonra Camal Əfəndi Şamaxı qəzasına dəyişilib və ömrünü-fəaliyyətini birdəfəlik bu bölgəyə bağlayıb. Şamaxı Qəza Komitəsində işlədiyi dövrdə və sonrakı illərdə həm də dini-irfani dünyagörüşünə, iman əhli mənsubluğuna rəğmən elinobanın məclislərində iştirak edib, böyük hörmət, nüfuz sahibi olub, mahalın sayılıb-seçilən insanları ilə oturub-durub, dostluq edib. Əski çağlarda Gəmüstü, sonralar Stalinkənd, axırda Nərimankənd adlanlan kənddə el şairi aşıq Qara Hacı Yusif oğlu (1852-1936), Ilanli kəndinin ağsaqqalı Bəyalı bəy Ağalar bəy oğli (1904-1993) ilə səmimi münasibətləri olub. Bu dostluğu onun ikinci dəfə ailə qurması ilə nəticələnib, aşıq Qaranın qızı Gülnisə xanımla (1902-1938) evlənib, onun uşaqlarına (Zəhra və Məhəmməd Səid) atalıq edib, onların tərbiyəsi ilə məşğul olub. Gülnisə vəfat etdikdə isə 3-cü dəfə nahiyənin Nabur kəndindən olan Gülüstanla (1904-1980) evlənir, bu izdivacdan iki qızı dünyaya gəlir, Həcər və Zərifə adında.

İstəkli həyat yoldaşı Gülnisənin vəsiyyətinə görə Camal əfəndi doğma qızı Lətafəti atalıq etdiyi Məhəmməd ( Əzizov Məhəmməd Səid oğlu Sosialist Əməyi Qəhrəmanı olub, uzun müddət Şamaxı rayonu, Dərəkənd kəndini əhatə edən E.Telman adına kolxozun sədri işləyib) verir, onları evləndirir, onların da on uşağı olub (6 oğlan, 4 qız).

Nurani görünüşə və ağayana yerişə sahib olan Camal Əfəndi bir türk qazisi kimi hay-rus düşmənlərimizin siyahısında olduğundan, 1947-ci ildə Sibirə sürgün edilir, 9 il ərzində ağır, dözülməz çətinliklərə düçar olur, həm özü, həm də ailəsi. 1956-ci ildə sürgündən qayıtdıqdan sonra sadə və qürurlu həyatını davam etdirir.




... Camal Əfəndinin tərkibində olduğu dəstələrdən biri Pirsaat çayını keçib üzü Bakı istiqamətinə gəlirmiş. Gəmüstü kəndinin iki sakni də bu hadisələrin şahidi olub, onlar iki dəvə yükü ilə gələndə çaya çatmayan yerdə bunlarla rastlaşırlar. Atlı-süvari və piyada gəlib ordan keçən türk əsgərlərinin biri aradan bir az keçmiş geri qayıdır, dəvə yiyələrindən soruşur ki, tüfəngimin nizəsi düşüb onu axtarıram, görməmisiz? (Çünki onlar bu yoldan keçib getmişdilər.) Deyiblər ki, yox. Onda əsgər yerdə bir dairə çəkir, əlini qoyur dairənin içərisinə və yolçulara deyir ki, əgər görməmisinizsə onda əlinizi qoyun əlimin üstünə və and için. Əsgər necə buyurursa, yolçular da o cür edir, amma... onlar yalandan and içir, çünki onlardan biri həmin nizəni yoldan tapıb, dəvənin yük yerinə bərkitmişdi.

Əsgər geri qayıdıb, dəstəsinə qoşularaq ərazidən uzaqlaşır. Yoluçular nəhayət, gəlib çaya çatırlar, suyu keçmək üçün dəvələrə minməli olurlar. Dəvələri çayın elə yerində yatırdırlar ki, üstünə minə bilsinlər. Yolçulardan biri minir, o biri minəndə necə olursa, yükə bənd edilmiş nizə onun qarnına batır, yaralayır. Sonra o cüzi yaranı nə qədər müalicə edirlərsə, sağalmır ki, sağalmır və bir neçə aydan sonra günaha batmış yolçu dünyasını dəyişir...

Camal Əfəndi cümə namazlarını "Diri Baba türbəsi"ndə qılardı, irfani məclislərdə hikmətli söhbətlər edərdi, o, ərəb, rus və türk dillərini mükəmməl bilirdi.

1969-1970-ci illərdə Səudiyyə Ərəbistanından Moskva şəhərinə gələn nümayəndə heyətinin üzvü Əbdül Xaliq əmisi Camal Əfəndi ilə görüşmək üçün Bakı şəhərinə gəlir, həyat yoldaşı ilə qazinin nəvəsi Rəfiqə Məhəmməd qızının (1938-2018) evində uzun illərdən sonra doğmalar bir araya gəlir. Həmin görüşün ən təsirli məqamı Camal Əfəndinin gəncliyində ayrıldığı istəkli xanımının ağsaçlı, bəyaz görünüşlü şəklini görməsi olur... Bu görüşdən sonra onu gözləyən xanımı ilə görüşmək istəyi ilə neçə dəfə rəsmi qaydada icazə istəsə də, buna imkan verilmir...

Camal Əfəndi 1974-cü ildə dünyasını dəyişib və Nərimankənd kənd qəbirstanlığında dəfn edilib.

(Yazının hazırlanmasında Hacıqabul rayonu, Qızılburun kənd sakini Hacı Məmmədfərrux Əbdülvahid oğlu Muradovun (1948) və Qobustan şəhər sakini Gülağa Səfər oğlu Abbasovun (1951) məlumatlarından istifadə olunub).

***Qismət YUNUSOĞLU***
***Bakı Dövlət Universitetinin müəllimi***

**Bu yaxınlarda sosial şəbəkələrdə kütləvi bir etirazı müşahidə etdik. Ermənilərin bizim şəhər adlarımızla spirtli içkilər buraxdığına narazılıq bildirilirdi. Çox haqlı və yerində olan irad idi. Çünki hansısa əmtəənin üzərində olan ad həm də reklam deməkdir.**

*"Rəsmi dövlət qurumları da bu məsələyə operativ reaksiya verməlidirlər"*

# Spirtli içkilərlə heç əlaqəsi olmayan tarixi şəxsiyyətlərimizin şəkli butulkalarda...

**Tural İrfan:** *"Dindar adamların adını spirtli içkinin üzərinə yazmaq onları aşağılamaqdan başqa nəsə deyil"*




Ancaq bizim özümüz də daxili istehsalda bəzi vacib detallara fikir verməliyik. Məsələn, son vaxtlar müşahidə edirik ki, bəzi alkoqollu içkilər istehsal edən zavod və sexlər bir-birilə rəqabətə girib, məhsullarını daha cəlbedici təqdim etmək üçün, şüşələrin üzərinə tarixi şəxsiyyətlərin adını yazırlar. Ən maraqlısı isə budur ki, bəzən adları qeyd olunan şəxsiyyətlərin dönəminin dindar adamları olduğu, heç vaxt şərab qəbul etmədikləri üzə çıxır. Belə ki, "Şah İsmayıl Xətai" və ya "Nizami Gəncəvi" adlı spirtli içkilər buraxılır. Araşdırıldıqda məlum olur ki, hər iki tarixi şəxsiyyəti şərabla bağlayan hansısa əlamət yoxdur, əksinə, onlar dinə daha yaxın olublar. Təbii ki, belə adamların adının spirtli içkinin üzərinə yazılması həm də onlara olan hörmətsizlik kimi yozula bilər. Bu barədə ekspertlər nə düşünürlər?

İlahiyyatçı Tural İrfan "Bakı-Xəbər"ə açıqlamasında bildirdi ki, bu olduqca ciddi problemdir: "Ortaya bilirsinizmi hansı mənzərə çıxır? Kimsə pul qazanmaq istəyir və ürəyi nə istəyir edir. Ancaq belə işbazları özbaşına da buraxmaq olmaz axı. Bu gün nə Nizami Gəncəvinin, nə də Xətainin qohumları, doğmaları yoxdur ki, gedib həmin iş adamına etiraz etsin. Bunu biz ziyalılar, cəmiyyət etməlidir. Çünki onlar bu millətin sərvətidir, dəyəridir. Onların adını qorumaq həm bu dövlətin üzərinə düşür, həm də cəmiyyətin. Hesab edirəm ki, belə məsələyə ilk reaksiyanı Allahşükür Paşazadə verməlidir. Çünki o gözəl bilir ki, Nizami zəmanəsinin şeyxi olub. Dində şeyx titulu indiki akademikə bərabər, bəlkə də ondan da üstün olub. Bu, eyni zamanda, həmin adamın tarixi şəxsiyyət olması ilə yanaşı, həm də dinə bağlı adam olduğunu özündə ehtiva edir. İndi belə adamların adına çaxır və ya konyak buraxmağın nə adı ola bilər? Bu yaxınlarda bir din xadiminin adı şərabla bağlı hansısa qalmaqalda çəkildi. Gördünüz necə etiraz etdi? Bəs necə olur ki, belə məsələdə susqunluq görürük? Şah İsmayıl Xətainin bu gün də övliya kimi ehtiramını saxlayanlar var. İndi görün belə hallar nə qədər insanın heysiyyətinə toxunur. Dindar adamların adını spirtli içkinin üzərinə yazmaq onları aşağılamaqdan başqa nəsə deyil. Rəsmi dövlət qurumları da bu məsələyə operativ reaksiya verməlidirlər. Əgər rekalam xarakteri ilə bunu edirlərsə, bizim o qədər reklama ehtiyacı olan adlarımız var. Buyursunlar, onların adından istifadə etsinlər. Görürsünüz ki, belə adamların adına dövlətimiz heykəl qoyur, metro verir.

UNESCO kimi bir təşkilat Nizaminin 850 illiyini bütün dünyada qeyd etdi. Dünyanın ən böyük şəhərlərində onun şərəfinə heykəllər ucalır, amma bizdə onun adını araq şüşəsinə yazırlar. Rəzalətdir".

*Məhəmmədəli QƏRİBLİ*

**Ötən həftənin sonunda paytaxtda fəaliyyət göstərən supermarketlərin birindən alınan kolbasa istifadəyə yararsız imiş. Belə halla üzləşən Abbas Həsənli adlı vətəndaş kolbasanın fotolarını sosial şəbəkədə paylaşıb. O, fikirlərini bu cür davam etdirib:**

*"...insan orqanizmi üçün təhlükəli olan kimyəvi maddələr vurulur"*

# "Kral"ın halal kolbasaları ilə bağlı nə baş verir?

**Eyyub Hüseynov:** *"Bəzi dükanlarda istifadə müddəti bitmiş məhsullar, o cümlədən, kolbasalar satılır"*




"Mən hətta diqqətsizlikdən bunun "Halal nemət, 1000 bərəkət" məhsulu olduğunu düşünürdüm, sonra evdə baxdım ki, ümumiyyətlə, adını eşitmədiyim bir şirkətin məhsuludur. Adətən aldığım məhsulların son istifadə tarixini yoxlayıram, amma bunu yoxlamamış almışdıq və məhsulun üstündə "istehsal tarixi"nin qabağında, ümumiyyətlə, tarix yazılmamışdı".

Qeyd edək ki, vətəndaşın təqdim etdiyi fotolarda kolbasanın "Kral" şirkətinə aid olduğu görünür.

Məsələ ilə bağlı gün ərzində "Kral" şirkəti ilə əlaqə saxlamağa çalışsaq da, şirkətdən zəngimizə cavab verən olmadı.

Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov təəssüf hissilə bildirdi ki, bəzi dükanlarda istifadə müddəti bitmiş məhsullar, o cümlədən, kolbasalar satılır. İstifadə müddəti bitmiş kolbasa məhsulu vitrindən çıxarılmadığı üçün satışa çıxarılıb. Heç nədən xəbərsiz olan istehlakçı aldığı məhsulun yararsız olduğunu görəndə təəccüb keçirib. Bu cür hallar tez-tez yaşanır. Satışda istifadə müddəti bitmiş məhsullar yetərincədir: "Burada günahı market və ya dükan sahibində axtarmaq lazım deyil. Bu işə nəzarət edən işçilər istifadə müddəti bitmiş məhsulu vitrindən götürmədikləri üçün xoşagəlməz hallar qeydə alınır".

**Həmsöhbətimiz onu da vurğuladı ki, ölkəyə idxal olunan kolbasa və digər ət məhsulları insan sağlamlığı üçün daha təhlükəlidir: "Kolbasaların uzunmüddətli saxlanması, isti və soyuq şəraitdə xarab olmaması üçün onların və digər ət məhsullarının tərkibinə insan orqanizmi üçün təhlükəli olan kimyəvi maddələr vurulur".**

*Günel CƏLİLOVA*

**Bir vaxtlar yayı yaylaqda, qışı qışlaqda keçirərdi baba-nənələrimiz. Yazın qədəmi torpağa dəyər-dəyməz, yaylaq hazırlığına başlanardı və bu hazırlıq o qədər maraqlı olardı ki… Bu gün təəssüf ki, yaylaq yerlərimizin çoxu bədnam ermənilər tərəfindən işğal altında saxlanır. Bu səbəbdən də illərdir həmin yaylaq yerlərimizə köç edə bilmirik.**

# Milli Yaylaq Festivalı Azərbaycana nə verdi...




***Qiymət Məhərrəmli:*** *"Yaylaq Festivalı çərçivəsində elat mədəniyyətini ölkə daxilində və xaricində təbliğ etmək imkanı əldə etdik"*

***Kamilə Əliyeva:*** *"İlk Milli Yaylaq Festivalı illər keçəcək, amma yaddaşlardan silinməyəcək"*

Azərbaycanda tarixən yaylağa çıxma ənənəsi olduğundan, hazırda da bəzi bölgələrin sakinləri yaylaq yerlərinə çıxırlar. Əsrlər boyu formalaşan yaylaq ənənəmizin bu gün təbliğinə böyük ehtiyac var. Bu gün yaylağın təbliği, yaylaq yerlərimizin tanıdılması çox aktualdır. Məlum olduğu kimi, Azərbaycanda yaylaq və elat ənənələrinin yaşadılması və təbliği məqsədilə iyulun 26-da ilk dəfə olaraq Gədəbəy rayonunda Milli Yaylaq Festivalına start verildi.

İyulun 28-dək davam edən festival Türk Əməkdaşlıq və Koordinasiya Agentliyi (TİKA), "Cavadxan" Tarix və Mədəniyyət Fondu, Gədəbəy Rayon İcra Hakimiyyətinin təşkilatçılığı, Mədəniyyət Nazirliyi, Kənd Təsərrüfatı Nazirliyi, Dövlət Turizm Agentliyi, Kiçik və Orta Biznesin İnkişafı Agentliyi, Azərbaycan Atçılıq Federasiyası və Dünya Etnoidman Konfederasiyasının rəsmi dəstəyilə keçirildi.

Gədəbəy rayonunun ərazisində yerləşən Düzyurd-Miskinli yaylağında unikal konsepsiya əsasında təşkil olunan Milli Yaylaq Festivalına təşkilatçı və tərəfdaş qurumların rəhbər şəxsləri, dövlət və hökumət rəsmiləri, diplomatlar, 16 ölkədən nümayəndələr, o cümlədən, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, eləcə də yerli və xarici turistlər qatıldılar.

Qeyd edək ki, Milli Yaylaq Festivalı günlərində mədəni-etnoqrafik hissədə aşıqların deyişməsi, milli rəqslər (yallılar, cəngilər), xalq mahnıları, müxtəlif xalq səhnələri və tamaşaları, əski xalq oyunları (dirədöymə, çilingağac, əzəldöyməz, müçük, aşıq-aşıq, molla mindi) təşkil olundu, yaylaq kulinariya nümunələri (odun üzərində bişən xörəklər - dovğa, çoban buğlaması, sacüstü kətələr, kabablar və sair) təqdim edildi. Həmçinin, tətbiqi sənət nümunələrinin nümayişi və satış-sərgisi təşkil olundu. Qoçların, qurdbasarların (çoban itlərinin) və yerli yorğa atların sərgi müsabiqəsi keçirildi. Yaylaq və spesifik kənd təsərrüfatı mallarının yarmarkası fəaliyyət göstərdi. Festival müddətində ölkəmizdə tolerantlıq və multikulturalizmin əyani nümayişi olaraq, Azərbaycanda yaşayan müxtəlif etnik qrupların mədəni proqramları və nümunəvi çıxışları da maraqla qarşılandı.

Festivalın milli yaylaq (idman) oyunları şərti adı altında keçirilən hissəsində qədim kökə söykənən yorğa at yarışları (müxtəlif məsafə və kateqoriyalarda), milli güləş yarışı, çaparaq at yarışları, çoban güləşi (kəmər güləşi), nümunəvi çıxışlar, atüstü milli oyunlar - çövkən, bahar-bənd, sürpapaq, piyalə, ər endir (atüstü güləş), gərdək qaçırmaq, zorxana, kəndirbazlıq və oxatma təşkil olundu.

Bildirək ki, Yaylaq Festivalının eko-etnoturizm hissəsində isə turistlər üçün köhnə ənənəvi üslubda düzəldilmiş yurdlarda qalmaq imkanı yaradılmışdı. Şərti olaraq XVIII əsrin ənənəvi yaylağına səyahət də təşkil edildi. Belə ki, burada turistlər gün ərzində adi kənd həyatını yaşadılar. Yəni inək, qoyun-keçi otarıldı, onlar sağıldı, ot biçildi, taya düzəldildi, atlara qulluq olundu, nehrə çalındı, tətbiqi sənətlə məşğul olundu, milli xörəklər bişirildi. Həmçinin, bölgənin məşhur yerlərinə - Koroğlu qalası, Mahrasa məbədi, Qız qalası və digər məkanlara turlar, at gəzintiləri, "Alman izləri" adlı xüsusi ekskursiyalar təşkil olundu.

Millət vəkili, professor, festivalın iştirakçılarından olan Kamilə Əliyeva bizimlə söhbətində qeyd etdi ki, ilk Milli Yaylaq Festivalı illər keçəcək, amma yaddaşlardan silinməyəcək. Bu festival öz möhtəşəmliyi və ecazkarlığı ilə hələ uzun illər hafizələrdə qalacaq, yaşayacaq: "Festivalın keçirilməsində əsas məqsəd Azərbaycan xalqının zəngin və çoxəsrlik mədəni irsinin, yüz illərlə formalaşmış yaylaq və elat mədəniyyətinin nümayiş etdirilməsidir. Məkan kimi Gədəbəy rayonu təsadüfən seçilməyib. Bu bölgə öz təbiətinə, gözəlliyinə, milli adət-ənənələrlə, təbii sərvətlərlə zənginliyinə görə Azərbaycanın, eləcə də dünyanın unikal bölgələrindən biridir. Düzyurd-Miskinli yaylağında unikal konsepsiya əsasında təşkil olunan festivala təşkilatçı və tərəfdaş qurumların rəhbər şəxsləri, dövlət və hökumət rəsmiləri, diplomatlar, 16 ölkədən nümayəndə, o cümlədən, Dünya Etnoidman Konfederasiyasının sədri Bilal Ərdoğan, eləcə də yerli və xarici turistlər qatılıb".

Xanım millət vəkili hesab edir ki, çoxsaylı qonağın ilk dəfə keçirilən Milli Yaylaq Festivalına qatılması da bu festivalın gələcəyindən, perspektivindən xəbər verir: "Bu gün sabitlik adası olan multikultural Azərbaycan ölkə Prezidenti cənab İlham Əliyevin rəhbərliyi və uzaqgörən, müdrik siyasəti ilə dünyanın ən inkişaf edən dövlətlərindən birinə çevrilib. Ölkəmiz dünyanın milli-dini tolerantlıq mərkəzi, siyasi, iqtisadi, mədəni, humanitar, hərbi dialoq məkanıdır. Ölkəmizdə bir tədbir başa çatar-çatmaz, dünya və regional miqyaslı digər bir nüfuzlu tədbir öz işinə start verir. Elə bu günlərdə paytaxt Bakımızda keçirilən 15-ci Avropa Gənclər Yay Olimpiya Festivalını qeyd etmək olar. Bir həftə ərzində keçirilən tədbirə Azərbaycan layiqincə və uğurla evsahibliyi etdi. Azərbaycan bu festivalı möhtəşəm şəkildə reallaşdırmaqla daha bir zəfərinə, uğuruna imza atdı. Azərbaycanımız, paytaxtımız Bakı, onun gözəlliyi, inkişafımız bir daha dünyaya nümayiş olundu, hər kəs hər şeyi olduğu kimi gördü".

AMEA-nın Folklor İnstitutunun əməkdaşı, filologiya üzrə fəlsəfə doktoru Qiymət Məhərrəmli "Bakı-Xəbər"ə bildirdi ki, ölkəmizdə keçirilən bu festival bütün mənalarda effekt verəcək. Onun sözlərinə görə, festival çərçivəsində elat mədəniyyətini ölkə daxilində və xaricində təbliğ etmək imkanı əldə etdik: "Bu festival elat həyatının, mədəniyyətinin təbliğində xüsusi rol oynadı. Düşünürəm ki, üzümüzə gələn illərdə keçiriləcək növbəti festivallarda biz öz yaylaq mədəniyyətimizi daha çox tanıtmış olacağıq. Tarixən bizim xalqımız yayı yaylaqda, qışı qışlaq keçirib. Yaylağa köçmə ənənəsi bizə xasdır. Yaylağın öz abhavası, ruhu var. Bu böyük bir törəndir".

Q.Məhərrəmli bildirdi ki, yaylaq Azərbaycanda geniş yayılmış müvəqqəti yaşayış məskənlərindən biridir.

Onun sözlərinə görə, yaylaqlar, adətən, yüksək dağlıq yerlərdə, alp çəmənliklərində yerləşir. İlin 3-4 ayını yaylaqlarda keçirən maldar elatlar burada alaçıq və dəyələrdə yaşayırdılar: "Yaylaq mal-qaranın yay zamanı otarıldığı ərazi, yer olub. Maldarlıq meydana gəldikdən sonra yaylaqlardan geniş istifadə olunur. Azərbaycanda yaylaqların əksəriyyəti dəniz səviyyəsindən orta hesabla 2800 m-ə qədər yüksəklikdədir. Böyük və Kiçik Qafqaz dağlarındakı alp və subalp çəmənlikləri qoyunçuluğun qədim yaylaqları sayılır. Yaylaq həm də sərinliyinə görə yay istirahəti üçün əlverişli olan dağ yeridir. Azərbaycanda təqribən 6 minillik tarixi olan yaylaqlardan indi də geniş istifadə olunur. Yaylaqlara köçmə və yurdsalma qaydalarında əsasən su mənbələrinə yaxınlıq və otlaq qayğıları, həmçinin, qohumluq münasibətləri üstün yer tuturdu. Qohum ailələrin bir neçə il dalbadal düşdükləri yurd yerləri, yaylaqlar ailə başçısının, bəzən də onların təmsil etdikləri kəndlərin adları ilə adlanırdı" - deyə bildirən ekspert söylədi ki, Azərbaycanda məşhur Qırxqız, Xoşbulaq, Əmirəhmədin yurdu, Nəbi yurdu,

Eldar yaylağı, Çubuqlu, Əyricə kimi yaylaqlar ulu babalarımızın yurd yerləridir: "Yaylaq Festivalının keçirilməsi ilə biz yaylaqlara yeni turist axını əldə edə biləcəyik. Çünki turistlərin yaylaqlara cəlb edilməsi ilə bir turizm ənənəsinin də əsasını qoymuş olacağıq. Beləliklə, turistlər yaylaqda həm qurulan dəyəri görəcəklər, o alaçıqlarda qalacaqlar, bununla da yaylaq həyatını yaxından izləyəcəklər. İnəyin sağılmasından, nehrə çalxanmasından, pendir, qurud tutulmasından mal-qaranın örüşə aparılmasına qədər hər şeyi turistlər öz gözləri ilə görəcəklər".

***Günel CƏLİLOVA***

# *8555 taksi xidmətinin müştərilərlə anlaşılmaz qiymət siyasəti - gündüzlər bir, gecələr fərqli qiymətlər...

**Bakıda ənənəvi taksi xidməti getdikcə əhəmiyyətli dərəcədə azalmaqdadır. Müştərilərin sayı əvvəlki kimi deyil. Hazırda Bakı şəhərində bir neçə iri taksi xidməti fəaliyyət göstərir. Fəaliyyət ərazisi eyni olsa da, xidmət səviyyəsi, xidmət çeşidi və digər amillərdən asılı olaraq, xidmət haqlarında da fərqlər var.**




Hazırda ən çox sifariş edilən *9933 nömrəli "Salam" taksi, *8555 nömrəli "Ailə" taksi, *9111 nömrəli "Ekonom" taksi, *8844 nömrəli "City" taksi, *5000 nömrəli "Ulduz" taksi bu siyasəti həyata keçirirlər. İndi müştərilərin əksəriyyəti sözügedən taksi şirkətlərinin xidmətinə üstünlük verir. Bunun bir səbəbi qiymətlərdir, digər amil təhlükəsizlik və sürücünün vaxtında sifariş olunan ünvana gəlməsidir. Ancaq son vaxtlar müştəriləri narazı salan taksi şirkətlərinin qiymət manevrləridir.

Məsələ ondadır ki, kim necə istəyir, o cür qiymət tətbiq edir. Ötən ilin ortalarından başlayaraq, ümumiyyətlə, qiymətləri artırıblar. Bu sahədə, faktiki olaraq, qiymətləri tənzimləyən qurum yoxdur. Ona görə hər bir şirkət istədiyi tarifi müəyyənləşdirir. Əvvəlcə müştərini cəlb etmək üçün ucuz qiymətlər təklif edirlər, sonra bazarda yer tutub qiymətləri qaldırırlar.

Bu arada diqqətçəkən məqamlardan biri də ondan ibarətdir ki, eyni məsafəyə görə taksi xidməti günün müxtəlif saatlarında müxtəlif qiymətlər təklif edir. Bir növ, bu minvalla, müştəriləri soyurlar. Belə taksi xidməti ilə məşğul olan şirkətlərdən biri də *8555 nömrəli "Ailə" taksi xidmətidir. Problem ondadır ki, sözügedən şirkət eyni məsafəli yola görə müştərilərə müxtəlif qiymətlər təklif edir. Məsələn, Maştağa qəsəbəsindən Biləcəri qəsəbəsinə müştərini 8 manata aparırlar. İlk baxışdan bu qiymət münasib görünür. Ancaq bu, gün ərzində həmişə belə olmur. Saat altıdan sonra və yaxud axşam 11-12 radələrində müştəri *8555 taksi xidmətinə sifariş verəndə 8 manata göstərilən xidmət olur 13 manat. Bir gün ərzində qiymətlərin niyə bu qədər dəyişkən olduğunun səbəbini soruşduqda buna aydınlıq gətirən olmur. Hansı ki, bu, müştərinin soyulmasından başqa bir şey deyil.

Məsələ ilə əlaqədar *8555 nömrəli "Ailə" taksi xidməti ilə əlaqə saxladıq. Xidmətdən adını açıqlamayan şəxs qiymət fərqinin səbəbni belə izah etdi: "Bu ona görədən qiymət dəyişir. Çünki gediş-gəlişin pik saatlarında endirimlərin tətbiqi sərfəli olmur. Nəzərə almaq lazımdır ki, həmin saatlarda şəhərdə tıxaclar olur. Ona görə belədir ki, biz günün müxtəlif saatlarında xidmətləri endirimlə təklif edirik. Qiymət endirimlə təklif edildiyindən bu, gün ərzində dəyişir. Qiymətlərin fərqli olması məhz bununla bağlıdır. Ancaq nəzərinizə çatdırım ki, pik saatlarında tətbiq olunan endirimlər dondurulur və bu səbəbdən də endirimli qiymətlər tətbiq olunmur".

***8555 taksi xidmətinin təmsilçisi:** *"Pik saatlarında tətbiq olunan endirimlər dondurulur və bu səbəbdən qiymət dəyişir"*

**Fuad İbrahimov:** *"Belə hallarda da müxtəlif qiymətlər təklif edilirsə, bu, istehlakçının cibinə girməkdir"*

Soruşanda ki, axşam 11-12 radələrində gediş-gəlişin pik vaxtı olmadığı halda, niyə qiymətlər qalxır, taksi xidmətinin təmsilçisi bu suala cavab vermədi.

Sözügedən məsələ ilə bağlı fikirlərini "Bakı-Xəbər"lə bölüşən iqtisadçı-ekspert Fuad İbrahimov bununla bağlı bir sıra məqamlara toxundu: "Taksi xidmətinin eyni məsafəli yolu müştərilərə müxtəlif qiymətə təklif etməsi əsasən günün vaxtı ilə bağlıdır.

Dünyanın bir sıra ölkələrində taksi xidmətlərində tarif bu cür tətbiq olunur. Məsələ ondadır ki, pik saatlarında nəqliyyat vasitəsinin yanacaq sərfiyatı artır. Buna görə tarif dəyişir. Ancaq nəzərə almaq lazımdır ki, günün bəzi saatlarında tıxac olmur. Yollarda avtomobillərin hərəkət intensivliyi aşağı düşür. Belə hallarda da müxtəlif qiymətlər təklif edilirsə, bu, istehlakçının cibinə girməkdir. Eyni zamanda, bu, dələduzluğun bir formasıdır".

***Vidadi ORDAHALLI***

# Üzərində ingiliscə söyüş yazılan köynəklər Bakıya necə gətirilir...

**Son vaxtlar paytaxtda yerləşən müxtəlif brend mağazalarda satılan paltarların üzərində xarici dillərdə vulqar ifadələr yazılmasına, eyni zamanda, gənc nəslin tərbiyəsinə təsir edən şəkillərlə bəzədilən paltarlara rast gəlinir. Belə bir hadisə bu günlərdə paytaxtda fəaliyyət göstərən mağazaların birində qeydə alınıb.**



**Natiq Cəfərli:** *"Gənclərin üstünlük verdiyi geyimlər daha çox Çindən idxal olunur"*

Belə ki, Bakıda yerləşən "New Yorker" mağazasında satılan köynək birmənalı qarşılanmayıb. Sözügedən köynəyin üzərinə ingiliscə söyüş yazılması sosial şəbəkədə həm müzakirəyə, həm də etiraza səbəb olub. Bildirilir ki, həmin köynək Bakının Əhmədli qəsəbəsində yerləşən "New Yorker" geyim dükanında satılır.

Müştəri məsələ ilə bağlı satıcılara irad bildirsə də, bunun heç bir faydası olmayıb.

Maraqlıdır, üzərində söyüş, gənclərin tərbiyəsinə mənfi təsir edəcək sözlər yazılan geyimlər ölkəyə necə gətirilir?

İqtisadçı-ekspert Natiq Cəfərli bildirdi ki, bu tip köynəklərin ölkəyə gətirildiyi ehtimal olunur: "Nəzərə almaq lazımdır ki, toxuculuq sənayesində yerli istehsalın çəkisi azdır. Gənclərin üstünlük verdiyi geyimlər daha çox Çindən idxal olunur". Həmsöhbətimizin dediyinə görə, gənclərin tərbiyəsinə təsir edəcək, üzərində söyüş yazılan hər hansı bir geyim və ya əşyanın ölkəyə gətirilməsi düzgün deyil. Qanunvericilikdə insanların əxlaqına, tərbiyəsinə təsir edəcək materialların reklamı qadağan olunub: "Aidiyyəti qurumlar bu məsələni xüsusi nəzarətə götürməlidirlər".

*"Gənclərin tərbiyəsinə təsir edəcək, üzərində söyüş yazılan hər hansı bir geyim və ya əşyanın ölkəyə gətirilməsi düzgün deyil"*

İqtisadçı onu da vurğuladı ki, geyim məhsulları ölkəyə konteynerlər vasitəsilə gətirilir. Məlumdur ki, konteynerlərdə geyimlər bir-bir yoxlanmır:

"Nəzərə almaq lazımdır ki, eyni vaxtda konteynerlərdə minlərlə məhsul gəlir. Geyimlərin bir-bir yoxlanması mümkün deyil. Artıq narkotik təbliğ edən köynəklər satışa çıxarılıbsa, qısa zaman ərzində həmin məhsulun topdan satışının kimlər tərəfindən həyata keçirildiyini və hansı yolla ölkəyə daxil olduğunu müəyyən etmək olar".

***Günel CƏLİLOVA***

# Ürəyi Laçında qalan şair-jurnalist Şöhlət Abbasın ilk şeirlər kitabı işıq üzü görüb




**Tanınmış jurnalist-şair Şöhlət Abbasın "Məni bağışlama" adlı ilk şeirlər kitabı işıq üzü görüb.**

Qarabağ müharibəsinin salnaməsini yazan ilk jurnalistlərdən biri olan Ş.Abbasın könül çırpıntılarının toplandığı bu nəşrdə müəllifin vətənpərvərlik ruhunda yazdığı, doğma torpağa məhəbbətlə qələmə aldığı şeirlər öz fərqliliyi ilə diqqəti cəlb edir. Əlbəttə, bütün şairlər öz duyğularını, yaşadıqlarını yazır. Şair sözünə yad duyğu, yad təsir sirayət edə bilməz.

"Məni bağışlama" kitabına "Yurd həsrətli misralar" adlı ön söz yazan pedaqogika üzrə fəlsəfə doktoru, Azərbaycan Yazıçılar Birliyinin üzvü Cəbrayıl Qəhrəmanov sadə və təvəzökar insan, şair-jurnalist, "Pillələr" qəzetinin baş redaktoru Ş.Abbası hələ ötən əsrin 70-ci illərindən tanıdığını və şeirlərinə, yazılarına bələd olduğunu qeyd edir. "Bu kitab Şöhlət Abbasın oxucularla ilk görüşüdür. Mən Şöhlət Abbasa yeni yaradıcılıq uğurları və ən ümdəsi, ona doğma yurdlarımıza qayıtmaq gününün qismət olmasını arzulayıram. Və sözsüz ki, həmin Qələbə gününün şərəfinə Şöhlət Abbas daha möhtəşəm poeziya nümunələri yaradacaq" - deyə yazan alim qeyd edir ki, Ş.Abbas doğulduğu Laçın torpağına, sözə, poeziyaya çox bağlı bir qələm adamıdır.

*Getdim dünyaları gəzdim-dolaşdım,*
*Yenə də ürəyim Laçında qaldı.*

Şair bülbülə xitabən yazdığı başqa bir şeirində isə dərdini, yaşadığı Vətən, yurd ağrısını, köçkünlük əzabını ona anladır.

*Nə acıdır yurd həsrəti,*
*Nə şirindir Vətən, bülbül.*
*...Qazandığım ağ saçımdır,*
*Gəncliyimdir itən bülbül...*

Şairin ilk kitabının oxucular tərəfindən də böyük maraqla qarşılanacağına şübhə etmirik.

***İradə SARIYEVA***

# "Azercell"in Rəqəmsal dünyası bölgələrdə




## *Azərbaycan bölgələrinə səyahət Naxçıvandan başlayır*

**Qlobal informasiya-kommunikasiya texnologiyalarının ən son trendlərini daha əlçatan etməyi hədəfləyərək fəaliyyətinin rəqəmsal dövrünə qədəm qoyan "Azercell Telekom" iyul-avqust aylarında "Rəqəmsal dünya bölgələrdə" adlı yeni layihəsinə start verir.**

Bu dəfə lider mobil operator Naxçıvandan başlayaraq, Ağdam, Bərdə, Tərtər, Mingəçevir, Yevlax, Gəncə, Şəmkir, Tovuz, Qazax, Şəki, Zaqatala, İsmayıllı, Şamaxı, Qəbələ, Göyçay, Sumqayıt, Quba, Xaçmaz, Qusar, Sabirabad, Şirvan və Lənkəran kimi regionlara səfər edəcək və bununla da ölkədə rəqəmsal savadlılıq səviyyəsinin artırılması istiqamətində öz fəaliyyətini davam etdirəcək.

Texnoloji dünyaya inteqrasiyanı sürətləndirmək və ölkə daxilində 4G şəbəkəsini genişləndirmək üçün təkcə son altı ayda "Azercell" ölkədə telekommunikasiya sənayesinin inkişafına 63 milyon manatdan artıq sərmayə yatırıb. Nəticədə 1007 yeni LTE stansiyası quraşdırılıb və şirkətin ümumi stansiyalarının sayı 7000-i keçib.

Beləliklə, "Rəqəmsal dünya bölgələrdə" tədbirinin iştirakçıları gündəlik insan həyatının texnoloji yeniliklər və mobil texniki cihazlar vasitəsilə daha da rahat və effektiv olmasının üstünlükləri ilə yanaşı, "Azercell"in yenilənmiş rəqəmsal həllər müxtəlifliyi ilə də tanış olmaq fürsəti əldə edəcəklər. Burada "Azercell"in yeni rəqəmsal məhsulları olan "Kabinetim" tətbiqi, "BuludCinema", "TelekomTv" xidmətləri, mobil internet cihazları və www.azercellim.com onlayn bazası, rabitə xərclərinə qənaət etmək imkanını təklif edən "Sərbəst", "GəncOL" və "Sadə" tarif paketləri təqdim ediləcək. Şirkətin yeni "Rəqəmsal dünyanı yarat" şüarı altında keçiriləcək bu tədbir çərçivəsində müxtəlif proqramlar, müsabiqələr, intellektual və əyləncəli oyunlar təşkil olunacaq və iştirakçılara hədiyyələr paylanacaq. "Azercell"in təşəbbüsü ilə yaradılan "İmzanı Tanıt" sosial kampaniyasının işirakçıları da tədbirə dəvət ediləcəklər. Qeyd edək ki, qısa müddət ərzində sosial şəbəkələrdə rezonans yaratmağa müvəffəq olan "İmzanı Tanıt" çağırışı ölkəmizdə sahibkarlıq mühitinin inkişafı, eləcə də tarixi və milli mədəni irsimizin inkişafı ideyasını özündə əks etdirir.

Bununla yanaşı, festival çərçivəsində "Azercell"in "Mobil Diş" və "Mobil Göz" klinikaları valideyn himayəsindən məhrum uşaqları, ehtiyacı olan ailələri və ahılları ziyarət edərək onlara təmənnasız müayinə və müalicə təşkil edəcək. "Azercell" uşaqlara hədiyyə olaraq məktəb ləvazimatları da paylayacaq.

Qeyd edək ki, şəbəkənin inkişaf etdirilməsi, o cümlədən, ölkə üzrə 4G şəbəkəsinin gücləndirilməsi və genişləndirilməsi 2018-2019-cu illərdə şirkət fəaliyyətinin əsas prioriteti olub. Respublikanın bütün sakinlərini bərabər texnoloji imkanlarla təmin etmək üçün bu dövr ərzində ölkə üzrə LTE şəbəkəsinin əhatə dairəsi 61.4% genişləndirilərək, 4G xidmətinin aktiv olduğu bölgələrin sayı 57-ə çatdırılıb. Bu dövr ərzində 1007 yeni stansiya qurulub, beləliklə də 4G stansiyalarının sayı 1667-ə çatdırılıb, 171 stansiya təkmilləşdirilib, Bakı və Abşeron yarımadası tamamilə 4G şəbəkəsi ilə təmin edilib. Festivalın ən son məlumatları ilə tanış olmaq üçün "Azercell"in rəsmi "Instagram" və "Facebook" səhifələrini izləməyi unutmayın!

Daha ətraflı məlumat üçün news@mcs.az ünvanına müraciət edə bilərsiniz.

# "Nar" rabitə sahəsində xüsusi fərqlənən tələbələri mükafatlandırdı

**Gənclərin maariflənməsinə və intellektual inkişafına dəstək məqsədilə "Nar" korporativ sosial məsuliyyət (KSM) strategiyası çərçivəsində növbəti layihəsini həyata keçirib.**

Mobil operator Azərbaycan Texniki Universitetinin fərqlənən tələbələrini baş ofisinə dəvət edərək, onları xüsusi hədiyyələrlə mükafatlandırıb. Qeyd edək ki, "Nar" ənənəvi olaraq hər tədris semestrinin sonunda Radiotexnika və rabitə fakültəsinin ən yaxşı nəticə göstərən tələbələrilə görüşərək, onları təbrik edir.

Görüşün məqsədi texniki sahə üzrə təhsil alan tələbələri yeni nailiyyətlərə ruhlandırmaq və onların gələcək iş istiqamətləri haqqında təsəvvür formalaşdırmaqdır. Tələbələr rabitə bazarında tələb olunan əsas bilik və bacarıqlar barədə məlumat əldə ediblər.

Azərbaycan Texniki Universitetinin ən yaxşı tələbələrinin mükafatlandırılması "Nar" və universitet arasında 2016-cı ildən aparılan tərəfdaşlıq çərçivəsində baş tutur. Əməkdaşlıq çərçivəsində mobil operator universitetin tələbələri üçün GSM laboratoriyası istifadəyə verib, müxtəlif vaxtlarda tələbələr üçün nəzəri və təcrübi təlimlər təşkil edib.

Azərbaycan Texniki Universitetilə tərəfdaşlıq "Nar"ın korporativ sosial məsuliyyət (KSM) strategiyasının bir istiqamətidir. Hədəf Azərbaycanın rabitə sahəsində peşəkar kadrların hazırlanması və onların beynəlxalq rabitə bazarında əcnəbi həmkarlarından daha üstün mövqeyə çatmasıdır.

"Azerfon" şirkəti ("Nar" ticarət nişanı) 21 mart 2007-ci ildə fəaliyyətə başlayaraq qısa bir müddətdə Azərbaycanda telekommunikasiya və mobil rabitə sahəsinin aparıcı şirkətlərindən birinə çevrilib. "Nar" ticarət nişanı Azərbaycanın zəngin mədəni və tarixi irsinin çağdaş həyatla bağlılığının rəmzi olaraq seçilib. "Nar" ölkədə ilk dəfə olaraq 3G texnologiyasını təqdim edib və geniş 4G şəbəkəsini abunəçilərinin istifadəsinə verib. 2017-ci ildə keçirilmiş mobil rabitə şəbəkələrinin müqayisəli testlərinə əsasən, "Nar" şəbəkəsi mobil zəng xidmətlərinin göstərilməsi üzrə ölkədə ən yüksək nəticəyə nail olub. Sınaqları test xidmətləri üzrə müstəqil beynəlxalq şirkət olan "P3 Communications" keçirib və sınaq metodologiyası əhatəli xidmətlər üzrə müştəri təcrübəsinə əsaslanıb.

## Elan

Şəki rayonu, Baş Göynük kənd inzibati ərazi dairəsi üzrə nümayəndəliyə məxsus möhür itdiyi üçün etibarsız sayılır.

Şəki rayonu, Turan qəsəbə sakini Məmmədov Ənvər Abuzər oğlunun adına verilmiş 113 saylı evin qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

Haqverdiyev Vüsal Yusif oğlunun adına doğum haqqında şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

Cabbarlı Fəridə Vafiq qızına "Şaiq" MTK tərəfindən verilmiş müqavilə itdiyi üçün etibarsız sayılır (Ünvan: Bakı şəhəri, Xətai rayonu, Telnov küçəsi, 2347-48-ci məhəllə, mənzil N131).

Əmirbəyova Tamilla Zal qızının adına, Bakı şəhəri, Binəqədi rayonu, Azadlıq prospekti, ev 191, mənzil 42 ünvanının qeydiyyat vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

İbrahimov İbrahim Qurbanəli oğlunun adına, Abşeron rayonu, Hökməli qəsəbəsində yerləşən 1.1784 ha torpağın reyestr nömrəsi 308013028885 olan texniki pasport itdiyi üçün etibarsız sayılır.

Adıgözəlov Hacımahmud Adıgözəl oğlunun adına, Qazax rayonu, Xanlıqlar kəndində yerləşən 20 sot torpağın mülkiyyətə verilməsinə dair JN-621 nömrəli şəhadətnamə itdiyi üçün etibarsız sayılır.

№ 132 (4030) ■ Qiyməti: 40 qəpik

# BAKI XƏBƏR

30 İYUL 2019-cu il

www.baki-xeber.com

# ABŞ-da "Apollon-11" ekipajı üzvlərinə kərə yağından heykəl qoyuldu



**ABŞ-da ilk dəfə Aya uçan "Apollon-11" kosmik gəmisinin ekipajının üzvləri Nil Armstronq, Edvin Bazz Oldrin və Maykl Kollinzin kərə yağından heykəlləri hazırlanıb.**

"AZƏRTAC" bildirir ki, maraqlı heykəllər Ohayo ştatında keçirilən illik kənd təsərrüfatı yarmarkasında nümayiş olunub. NASA-nın hər üç astronavtının fiqurları onların natural ölçülərində hazırlanıb. Heykəltəraşlıq kompozisiyası Amerika bayrağı və Nil Armstronqun 1969-cu ilin iyulunda Ayın səthində qoyduğu izi ehtiva edir. CNN-in reportajında bildirilir ki, kompozisiyanın hazırlanmasında 907 kiloqram kərə yağından istifadə olunub. Sinsinatti şəhərindən olan heykəltəraşlar üçün ən mürəkkəb olan isə astronavtların skafandrlarının düzəldilməsi olub. Heykəltəraşlardan biri Aleksandr Balz deyib: "Düzünü desək, skafandrların düzəldilməsi bizim üçün əsl imtahan oldu. Bələd olduğun əşyaları hazırlamaq asandır, skafandrlar isə..." Bu kompozisiyanın Ohayo fermerlərinin yarmarkasında nümayişi də təsadüfi deyil. Aya ilk ayaq basan astronavt Nil Armstronq 2012-ci il avqustun 25-də Ohayo ştatının Sinsinatti şəhərində anadan olub. Yarmarkada kərə yağından düzəldilmiş digər heykəllər də nümayiş olunub. Buradakı inək və buzov heykəllərinin qulağında da "Apollon-11" yazılıb.

## Sərnişinin avtobusda unutduğu çantadan qaz çıxdı

Türkiyənin Bursa şəhərində avtobusda kuryoz hadisə yaşanıb. "Ölkə.az" bildirir ki, sərnişinlərdən birinin unutduğu çantaya baxan sürücü təəccüblənib. Belə ki, sürücü avtobusdan qəribə səs eşidib. O, arxa oturacaqlara yaxınlaşaraq, unudulmuş çantanın tərpəndiyini görüb. Çantanı açan sürücü orada ağ rəngli qaz görüb. O, quşu çantadan çıxararaq, ölümdən qurtarıb. Qaz sağ-salamat yiyəsinə təhvil verilib.

## Kanadada naməlum şəxs lotereyada 45,5 milyon dollar uddu

Kanadanın "Lotto Max" milli lotereyasının 45,5 milyon dollarlıq cekpotu oynanılıb. "TASS" verdiyi məlumata görə, bu barədə lotereyanı keçirən "OLG" şirkətinin nümayəndələri xəbər verir. Nümayəndələr bildirib: "Uduşlu biletin rəqəmləri - 11, 15, 17, 20, 24, 25 və 50. Bonus-rəqəm - 30". Bildirilir ki, hazırda biletin Kanadanın Britaniya Kolumbiyası əyalətində satıldığı bilinir, lakin daha dəqiq məlumat verilmir. Qeyd edək ki, Kanada tarixində ən böyük cekpot - 49, 5 milyon dollar 2015-ci ilin oktyabr ayında oynanılıb.



# "Su pərisi" dünyaya gəldi

**Hindistanın Uttar-Pradeş ştatının Lakximpur-Kxeri dairəsində sirenomeliya ilə uşaq doğulub. "Milli.Az" xəbər verir ki, bu haqda "The Times of India" nəşri bildirib.**

Nəşrin məlumatına görə, yerli xəstəxanada doğuş normal keçib, amma körpə bitişik ayaqlarla dünyaya gəlib. Körpənin vəziyyəti ağır olduğundan həkimlər onu dairə xəstəxanasına aparmağı tövsiyə ediblər, amma körpə yolda həyatını itirib. Həkimlərin sözlərinə görə, uşaq çox zəif idi və doğulduqdan bir saat sonra - hələ körpənin cinsiyyəti müəyyən edilmədən ölüb. Qeyd edək ki, sirenomeliya və ya su pərisi sindromu adlanan genetik anomaliya körpənin aşağı ətraflarının



bitişik formada olmasına deyilir.

Sirenomelia sindromu ilə doğulan uşaqların ayaqları ana bətnində bitişik halda inkişaf edir. Belə olduqda? uşaqların cinsiyyətini də müəyyələşdirmək olmur. Anomaliya daxili orqanların lazımınca inkişaf etməməsinə görə uşağın ölümünə gətirib çıxarır. Bu xəstəliklə doğulan uşaqlar bir gündən artıq yaşamır. Su pərisi sindromu hər 100 körpədən birində rast gəlinir.





**Qoç** - Mobil, kreativ və məqsədyönlü olun. Bir çox məsələləri dərhal həll etmək olar. Bir sıra məsələlər təcili həllini tələb edir. Amma tələskənlik etməyin. Yüz ölçüb, bir biçin. İşdə qaydalara və tələblərə riayət edin.



**Buğa** - Rəqiblər və bədxahlar üzərində qələbə çala bilərsiniz. Mübarizəni müşahidə edən şəxslər sizi dəstəkləyəcəklər. İşdə yeni münasibətlər qura bilərsiniz. Bu təmaslar faydalı olacaq.



**Əkizlər** - O qədər də yaxşı gün deyil. İstəklərinizi optimallaşdırın, hədəflərinizi təftiş edin. Ambisiyalarınız irreal olmasın. Qarşınıza qoyduğunuz məqsədə çatmaq üçün resurs və ya qüvvəniz azlıq edə bilər.



**Xərçəng** - Cari işləri unutmayın, onları vaxtında yerinə yetirin. Yaradıcılıq potensialınızın səviyyəsi yetərincə yüksəkdir. Fəqət, şedevr yaratmağa can atmayın, həlli tələb edən məsələlərlə məşğul olun.



**Şir** - Olduqca çətin məsələnin həlli ilə məşğul olmaq zamanıdır. Təsərrüfat məsələlərinin çözümünü başqalarına tapşırmayın. Daha çox pul qazanmağa çalışın. Günün ikinci yarısında fəaliyyət prosesinə tam nəzarət edin.



**Qız** - Realistsinizsə, yaxşı gündür. Situasiyanı obyektiv dəyərləndirin. Cari məsələlərin həlli üçün gərəkli yolları və vasitələri arayın. Emosiyalara əsir olsanız, uğursuzluğun acı dadını hiss edəcəksiniz.



**Tərəzi** - Sərbəstlik, asudəlik və müstəqillik istəklərində ifrata varmayın. Belə davranış pərişanlıq, ruh düşkünlüyü vəd edir. Yaxın ətrafınızdakı insanların dediklərinə qulaq asın. Evdə və işdə köklü dəyişikliklər zamanı deyil.



**Əqrəb** - Çevik, mütəhərrik, qıvraq olun. Ambisiyalarınızı başqalarının istəklərinə fəda etməyin. Həddən ziyadə ehtiyatkarlılıq və astagəl olmağınız maraqlandığınız istiqamətdə geriləməyə səbəb ola bilər.



**Oxatan** - Uğur seçəcəyiniz strategiyadan asılıdır. Ona görə də qəti qərar verməzdən əvvəl ətrafa diqqətlə nəzər salın, şərtləri dəyərləndirin. Tələskənlik etməyin. Maliyyə məsələlərində yalnız intuisiyaya güvənməyin.



**Oğlaq** - Ən çətin, qarışıq situasiyalarda dəmir əsəbli insan kimi davranın. Təmkin və səbr dadınıza çatacaq. Yaxın ətrafınızdakı insanlardan biri ilə qarşıdurma, həmkarların rəqabəti istisna deyil.



**Dolça** - Bəzi layihələrdən və istəklərdən əl çəkmək məcburiyyətindəsiniz. Fərdi planlar arxa plana keçir. Ən önəmli məsələni çözməyə başlayın. Ağır zəhmət çəkməli olacaqsınız.



**Balıqlar** - Uzaqgörən olun, iradəli davranın. Hadisələrlə zəngin gündür. Süstlük, zəiflik, apatiya yolverilməzdir. Emosiyaların qurbanı olmayın. Abstrakt mübahisələrə qatılmayın. Mənasız diskussiyalardan uzaq durun.

*Qoroskop Rusiya və Qərb astroloqlarının proqnozları əsasında hazırlanıb*

## Dünyanın ən varlı cütlüyü... 5,9 milyard...

**"Forbes" jurnalı dünyanın ən varlı cütlüyünü açıqlayıb. "AZƏRTAC" bildirir ki, 5,9 milyard dollarlıq sərvətləri ilə Tom və Cudi Love cütlüyü siyahıda ilk sırada qərarlaşıb.**

Tom və Cudi ABŞ-ın 41 ştatındakı 470 yük maşını dayanacağı və satış mağazalarından ibarət "Love's Travel Stops & Country Stores" şirkətinin sahibidirlər. Siyahıda sonrakı yerlərdə 5,6 milyard dollar sərvətləri ilə "Wonderful Co." şirkətinin sahibi Linda və Stivart Resnik cütlüyü, 4 milyard dollarla Diane von Furstenberq və Barri Diller ("InterActiveCorp", "Expedia Group", "Fox Broadcasting Company" və "USA Broadcasting"in sahibləri), 3,4 milyard dollarla Peqi və Andre Çernq ("Panda Express" və "Panda Restaurant Group"un sahibləri), 3 milyard dollarla Jin Suk və Do Von Çanq ("Forever 21" mağazalar şəbəkəsinin sahibləri), 2,8 milyard dollarlıq sərvətləri ilə türkiyəli Eren və Fatih Özmen cütlüyü ("Sierra Nevada Corporation"ın sahibləri) qərarlaşıb.

*Hazırladı: Ramil QULİYEV*

Baş redaktor: *Aydın Quliyev*

Baş redaktorun müavini: *Tahir Tağıyev*

Redaksiyanın ünvanı: *Bakı şəhəri, Mətbuat pr. 529-cu məhəllə, 6-cı mərtəbə*

Tel-faks: *510-87-40; 510-87-38; 510-87-39*

*e-mail: azer22@mail.ru*

Reyestr № 0106-P219-45846

Qəzet həftədə 5 dəfə çıxır. (Bazar və bazar ertəsindən başqa). «BZ»-də çap olunur.

*Sifariş: №2514* *Tiraj: 3050*

Qəzetdə «Olaylar» və «Trend» informasiya agentliklərinin materiallarından istifadə edilir.

Reklam mətninə görə qəzet məsuliyyət daşımır.